www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 yanvar 2017-ci il Çərşənbə axşamı № 10 (6624) Qiymətı 60 qəpik

**Xəbər**

## Bakıda usta iş yoldaşını bıçaqlayıb öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Qarabağda minomyot müharibəsi: düşmən mərmi yağdırdı, cavabını aldı



**Azərbaycanın Müdafiə Nazirliyindən xəbərdarlıq:** "Cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"

yazısı səh.11-də

### Dollar yüksəlişdə - rəsmi məzənnə 1.80-i keçdi

yazısı səh.2-də

### Deputat və iki partiya sədrinin məzhəb davası

yazısı səh.4-də

### Dağlıq Qarabağ bölgəsində Ermənistan hərbçisi öldürüldü

yazısı səh.2-də

### İqtidarın, yoxsa müxalifətin sonu çatıb?

yazısı səh.6-də

### Suriyada Amerikasız sülh mümkündürmü...

yazısı səh.9-də

### Dünya üçün yeni dönəmin başlanmasına 48 saat qaldı

yazısı səh.10-da

### Kipr məsələsi həllini tapır

yazısı səh.9-da

### Obama bir neçə həftə yatacaq; bəs başqa prezidentlər vəzifədən gedəndə nə edir...

yazısı səh.13-də

### Təfəkkür Universitetinin fəaliyyəti dayandırıldı

yazısı səh.2-də

### 2-ci sinif şagirdini maşın vurub öldürdü

yazısı səh.14-də

### Türkiyə geyimləri Azərbaycanda niyə dəfələrlə baha satılır...

yazısı səh.15-də

## "Vəziyyət daha betər olacaq..."

# ERMƏNİSTAN BATIR - ERMƏNİ EKSPERTLƏRDƏN SOS SİQNALI

Aprel döyüşlərindən sonra işğalçı ölkənin iqtisadiyyatı daha sürətlə uçuruma gedir - yeni baş nazir Karapetyan da "yaraya" məlhəm ola bilmədi; toplumdakı apreldən sonrakı qırılma, yeni müharibə xofu isə əhalini daha bədbin ovqata kökləməkdədir...




yazısı səh.8-də

## Qırğızıstanda qəzaya uğrayan Türkiyə təyyarəsi ilə bağlı sensasion iddia - Həmid Herisçi yazır

"Manas" hərbi bazasına eniş edərkən düşən və 37 can alan hava gəmisinin terror qurbanı olması ilə bağlı iddialar var; "Reina" qətliamından sonra THY təyyarələrinin açıq hədəf olması barədə proqnozlar verilmişdi

yazısı səh.5-də



*Qubad İbadoğlu:*

### "İqtisadiyyatın böyüməsindən daha çox faydalananlar onun kiçilməsindən də qazanırlar"

yazısı səh.6-da



*Əli Məsimli:*

### "Korrupsiyalaşmış məmurların yeni kadrlarla əvəz edilməsi işin vacib tərəfidir"

yazısı səh.7-də



### Akif Çovdarovun kürəkəni məhkəmədə dindirildi; qalmaqal düşdü

yazısı səh.3-də



## Prezident Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbəri ilə görüşü

**Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 16-da İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb. Dövlət başçısının yanvarın 16-da Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Suma Çakrabarti yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsində göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi və qarşıdakı dövrdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında səmərəli fəaliyyətin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında çox yaxşı əlaqələrin olduğunu bildirərək bu əməkdaşlığı yüksək qiymətləndirib və müxtəlif layihələrin həyata keçirilməsi üzrə səmərəli əlaqələrin qurulduğunu deyib.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara toxunan dövlətimizin başçısı ölkəmizdə özəl sektorun inkişafına daim diqqət göstərildiyini vurğulayıb.

Söhbət zamanı son vaxtlar Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu, bu layihələrin əməkdaşlığa yeni imkanlar açdığı qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Dolların rəsmi məzənnəsi 1.80-i keçdi

**Azərbaycan Mərkəzi Bankı (AMB) yanvarın 17-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,8045 səviyyəsində müəyyən olunub.**

## Dağlıq Qarabağ bölgəsində Ermənistan hərbçisi öldürüldü

**Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin müddətdən artıq hərbi qulluqçusu Araik İqoreviç Sarkisyan öldürülüb.**

"Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, onun ölüm səbəbi hələlik məlum deyil və araşdırılır.

İnformasiyaya əsasən, hadisə Dağlıq Qarabağda təmas xəttinin cənub-şərq istiqamətində baş verib.

O, 1995-ci ildə anadan olubmuş.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Jurnalistlər 2016-cı ilin fəal deputatlarını seçdilər

**Parlament Jurnalistləri Birliyi (PJB ) beşinci çağırış Milli Məclis deputatlarının 2016-cı ildəki fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı keçirilən sorğunun nəticələrini açıqlayıb.**

PJB-nin sədr müavini Aqil Aslan modern.az-a bildirib ki, sorğuda Milli Məclisdə akkreditasiya olunan jurnalistlər iştirak edib:

"Biz ənənəvi olaraq hər ilin sonunda deputatların illik fəaliyyəti ilə bağlı sorğu keçiririk. Bu, sayca 11-ci sorğumuzdur. Parlament jurnalistləri deputatların fəaliyyətini daha yaxından izləmək imkanına malikdirlər. Ona görə də onların seçimi daha obyektiv qiymətləndirilir. Bu il də qərara gəldik ki, üzvlərimiz arasında sorğu keçirib ötən ilin ən fəal deputatlarını cəmiyyətə təqdim edək. Əslində bu, həm də deputatlarımızın bir daha cəmiyyətə tanıdılması, yaxşı mənada deputatlar arasında rəqabət mühitinin yaradılması və jurnalistlərlə deputatlar arasında sıx əməkdaşlığa xidmət edən bir layihədir".

**A.Aslan deyib ki, sorğu nəticəsində "Qanunvericilik təşəbbüsü ilə çıxış edən ən fəal deputat" nominasiyasının qalibi Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva olub:**

"Millət vəkili Mehriban Əliyeva ötən il 28 May - Respublika günü münasibətilə "Amnistiya haqqında" qanun layihəsinin qəbul olunması ilə bağlı Milli Məclisə müraciət etdi. Mehriban xanımın qanunvericilik təşəbbüsü ilə təqdim etdiyi Amnistiya aktının qəbulu ilə 3500 nəfər məhkumluqdan azad edilib, ümumilikdə bu akt 10 minə qədər insanı əhatə edib. Parlament jurnalistlərinin böyük əksəriyyətinin fikrincə, Mehriban xanım nəinki təmsil etdiyi seçki dairəsində, bütün dairələr üzrə seçicilərin problemlərinin həllinə kömək edir. Birinci xanım ölkəmizi beynəlxalq tədbirlərdə də fəal təmsil edib ki, parlament jurnalistləri bunu da yüksək qiymətləndiriblər. Bununla onu demək istəyirəm ki, Mehriban Əliyeva daha iki nominasiya üzrə də qalib olub".



"İlin ən fəal deputatı" nominasiyasının qalibləri Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Zahid Oruc, Əflatun Amaşov və Çingiz Qənizadə olub. Bu nominasiyanın qalibləri Milli Məclisinin 2016-cı ildəki fəaliyyəti dövründə plenar iclaslarda gündəliyə dair təkliflər və gündəlikdə duran məsələlərin müzakirəsində fəallıqlarına görə müəyyən ediliblər.

"Seçici hüquqlarını müdafiə edən ən fəal deputat" nominasiyasının qalibləri isə Qənirə Paşayeva, Yevda Abramov, Vahid Əhmədov və Əli Məsimli olub. Bu nominasiyanın qalibləri Milli Məclisin 2016-cı ildəki fəaliyyəti dövründə seçicilərin üzləşdikləri problemlərin həllinə yardımçı olduqlarına görə müəyyən ediliblər.

"Azərbaycanı beynəlxalq təşkilatlarda təmsil edən ən fəal deputat" nominasiyasının qalibləri isə Bahar Muradova, Fuad Muradov, Sevinc Fətəliyeva, Azay Quliyev, Rövşən Rzayev və Cavanşir Feyziyevdir. Bu nominasiyanın qalibləri Milli Məclisin 2016-cı ildəki fəaliyyəti dövründə Azərbaycanı beynəlxalq təşkilatlarda fəal təmsil etdiklərinə görə müəyyən ediliblər.



## QHT Şurası 2016-cı ilin yekunlarını müzakirə edib

**Yanvarın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. Şura sədri, millət vəkili Azay Quliyev iclası açaraq gündəliyə təklif olunan Şuranın 2016-cı ildəki fəaliyyətinə dair hesabat, dövlət büdcəsindən Şuraya 2017-ci ildə ayrılmış vəsaitin bölgüsü və Şuraya daxil olan layihələr barədə məsələləri elan edib. Gündəlik yekdilliklə təsdiq olunub.**

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov Şuranın Əsasnaməsinə və QHT-lərə dövlət dəstəyi Konsepsiyasına uyğun olaraq 2016-cı ildə də QHT-lərin ictimai əhəmiyyət kəsb edən çoxsaylı təşəbbüslərinin dəstəkləndiyini və ölkədə vətəndaş cəmiyyətinin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirdiyini bildirib. İcraçı direktor ötən il Şuranın məlumat, təşkilati-texniki, konsultativ, maliyyə, metodiki sahədə QHT-lərə verdiyi dəstəklə bağlı ətraflı məruzə edib. Eyni zamanda Şuranın təşəbbüsü ilə Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması, Şuranın iştirak etdiyi dövlət proqramları, beynəlxalq əməkdaşlıq və digər məsələlər haqqında da məlumat verib. F.Qurbanov Şuranın 2016-cı ildə üç qrant müsabiqəsi həyata keçirdiyini və 556 QHT layihəsinin maliyyələşdirildiyini deyib.

F. Qurbanov 2017-ci il üçün Şuraya ayrılmış büdcə vəsaiti haqqında da məlumat verib.

Şura üzvləri Vüsal Quliyev, Əliməmməd Nuriyev, İlqar Məmmədov, Nərgiz Xələf, Şahin İsmayılov, Rufiz Qonaqov, Sahib Məmmədov, Anar Xəlilov və Emin Həsənli çıxış edərək gündəlikdə dayanan məsələlərlə bağlı təkliflərini bildiriblər.

İclasda Apelyasiya Komissiyasının səlahiyyətlərinin genişləndirilərək yalnız qrant müsabiqəsi nəticələri üzrə deyil, layihələrin təqdimolunması prosesi ilə də bağlı məsələlərlə əlaqədar fəaliyyət göstərməsi təklif edilib. Toplantıda layihələri qiymətləndirən ekspertlərin siyahısı da müzakirə edilib.

Müzakirələrdən sonra iclasın gündəliyində olan məsələlər ayrılıqda səsə qoyularaq qəbul edilib.



## Məktəblərdə 5 gün dərs olmayacaq

**Yanvarın 27-dən 31-nə qədər dərs olmayacaq. Bu barədə Təhsil Nazirliyinin məlumatında deyilir.**

Qeyd edək ki, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarına əsasən, dərs ili ərzində 5 gün payız tətili (16-20 noyabr), 5 gün qış tətili (27-31 yanvar) və ibtidai siniflər üçün 5 günlük (1-5 may) əlavə yaz tətili müəyyən edilib".




## Təfəkkür Universitetinin fəaliyyəti dayandırıldı

**Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti ötən ilin oktyabr ayının 11-də Təhsil Nazirliyinə müraciət edərək, universitetin Təsisçilər Şurasının maliyyə vəziyyətində yaranmış problemlərlə əlaqədar fəaliyyətinin dayandırılması barədə qərarın qəbul edildiyini bildirib.**

"Report"un məlumatına görə, bu barədə nazirlik məlumat yayıb.

Məlumata görə, göstəriləni, habelə universitetin 5 illik akkreditasiya müddətinin 2016-cı ildə bitdiyini nəzərə alaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi Təfəkkür Universitetinin akkreditasiyasının keçirilməməsi, 2017-2018-ci tədris ili üçün tələbə qəbulunun proqnozlaşdırılmaması və tələbə kontingentinin digər ali təhsil müəssisələrinə yerləşdirilməsini təşkil etmək məqsədilə işçi qrupunun yaradılması barədə qərar qəbul edib.

İşçi qrupuna universitetdə təhsil alan tələbələrin digər ali təhsil müəssisələrinə köçürülməsi ilə bağlı təkliflər hazırlayıb nazirliyin rəhbərliyinə təqdim edilməsi və digər təşkilati tədbirlərin görülməsi tapşırılıb.

Tələbələrə ixtisasları, habelə qəbul imtahanlarında topladıqları balları nəzərə alınmaqla müvafiq ali təhsil müəssisələrində maneəsiz yerləşdirilməsi üçün lazımi şərait yaradılacaq. Eyni zamanda köçürüləcək universitetlərdə onlar üçün təhsil haqqının artımına yol verilməyəcək.

Tələbələrdən qış imtahan sessiyasının başa çatmasından sonra universitetdə fəaliyyət göstərəcək işçi qrupla əlaqə saxlanılması xahiş olunur.

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi yanvarın 16-da davam etdirilib.**

# Akif Çovdarovun kürəkəni məhkəmədə dindirildi; qalmaqal düşdü

## Mühakimə olunan odioz general Gürcüstanın daxili işlər nazirinin müavininin xahişi ilə dinlədiyi şəxsi agent kimi işlətmək istəyib...



Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə Biləcəri qəsəbəsinin sabiq bələdiyyə sədri İlham Xəlilovun epizodu üzrə şahidlər dindirilib.

Məhkəmədə şahid qismində Natiq Hümbətov ifadə verib. O, Akif Çovdarovla qohum olduğunu deyib.

**Şahid bildirib ki, hazırda zərərçəkmiş kimi tanınan İlham Xəlilov A.Çovdarov həbs ediləndən sonra ona müraciət edərək deyib ki, guya A.Çovdarovun təkidi ilə onun adına borc yazdırıb:** "Dedi ki, A.Çovdarov onu məcbur edib, sənədə qol çəksin ki, guya İlhamın mənə 60 min borcu var. İlhamı iki dəfə Akif müəllimin evində məclis olanda görmüşəm. Akif müəllim İlhamı masanın başında əyləşdirirdi. Münasibətləri o qədər yaxın idi. Akif Çovdarov həbs ediləndə İlham gəlib dedi ki, onun Akif Çovdarova borcu olub, amma rəsmi sənəddə mənim adıma yazılıb. Guya İlhamın mənə 60 min borcu var. Notariusdan ona sənəd verməyimi istədi. Mən də dedim ki, bu, necə ola bilər ki, mənim xəbərim yoxdur? Dedi ki, "sənin xəbərin olmayıb". İlham dedi ki, "əgər borcun yoxdursa, nədən çəkinirsən? Bir sənədi niyə vermək istəmirsən?" Mən də düşündüm ki, bu, Akif müəllimin yaxın dostudur. İstəyirsə edim. Mən də qəlbində qara qalmasın deyə razılaşdım. Əgər bilsəydim ki, belə bir addım atacaq, əlbəttə verməzdim. Mən ona inanmışdım".

A.Çovdarovun vəkili Sadiq Rəsulov bildirib ki, notariusdan məhkəməyə göndərilən arayışda belə bir razılıq sənədinin verilməsi təkzib edilib.

Akif Çovdarovun kürəkəni Rövşən Qasımov da məhkəmədə ifadə verib.

Qeyd edək ki, İlham Xəlilov A.Çovdarovun kürəkəninə 6 sot torpaq sahəsi verdiyini ittihamda qeyd edib. İ.Xəlilov deyib ki, o, A.Çovdarovun təzyiqi və hədə-qorxusu ilə torpaq sahəsini Rövşən Qasımova verib.

**Deyilənlərin yalan olduğunu söyləyən Rövşən Qasımov məhkəmədə bunları deyib:** "İlhamdan torpaq sahəsi almaq istəməyim doğrudur. Amma bunun Akif Çovdarov vasitəsilə alınması və təzyiqlərin olması yalandır. Torpaq sahəsi alınan ərəfədə sənədlərdə problem var idi və torpağı bəyənmədim. Mən atamgil üçün bağ evi tikdirmək istəyirdim. Amma həmin ərazidə yaşıllığın olduğunu gördük. Orada tikinti aparmaq mümkün deyildi. Bu işi görmədik. Sonra Akif Çovdarov həbs ediləndə İlham zəng elədi ki, bu işlə bağlı Biləcəri bələdiyyəsində də yoxlamalar başlayıb. O, xahiş etdi ki, o vaxt ona verdiyi sənədləri qaytarım. Mən də sənədləri geri qaytardım. Əgər torpaq mənim adıma olsa idi, niyə qaytarırdım?"

İlham Xəlilov isə deyib ki, A.Çovdarovun kürəkəninin adına olan torpaq sahəsi ilə bağlı çıxarış olub. A.Çovdarovun vəkilləri isə belə bir çıxarışın olmasını təkzib ediblər.

Məhkəmədə digər sabiq bələdiyyə sədri Elman Salmanov da İlham Xəlilovla bağlı əlavə ifadə verib. Keçmiş Binəqədi bələdiyyəsinin sədri Elman Salmanov deyib ki, İlham Xəlilov ondan A.Çovdarova vermək adı ilə əlavə 16 min manat da alıb.

**Vəkil Sadiq Rəsulovun sözlərinə görə, sabiq bələdiyyə sədri Elman Salmanov məhkəmədə bunları deyib:** "Bunu istintaqda da dedim ki, İlham məndən əlavə 16 min də alıb. Amma bunlar yazılmadı. İlham Xəlilov məndən A.Çovdarova vermək adı ilə 150 mindən əlavə 16 min də aldı. O dedi ki, Novxanıda Akif Çovdarova tikilən bağ evinin birinci mərtəbəsini mən tikdirməliyəm. Qalan mərtəbələrini də İlham Xəlilov özü tikdirəcəyini dedi. Məndən bu adla 16 min də aldı. Bu pulu da hissə-hissə alıb. Qum, taxta və digər materiallar üçün..."

Sadiq Rəsulovun dediyinə görə, məhkəmədə məlum olub ki, A.Çovdarov bağını həmin vaxt tikdirməyib. İlham Xəlilov Elman Salmanovdan 2008-də pul alıb ki, A.Çovdarov Novxanıda bağ evi tikir.

"Amma A.Çovdarov dedi ki, bağ evinin inşasını 2005-ci ildə bitirib" - deyə S.Rəsulov bildirib.

Məhkəmədə Binəqədi bələdiyyəsinin sabiq sədri Elman Salmanov ona dəymiş zərəri ilk olaraq İlham Xəlilovdan istədiyini söyləyib.

**S.Rəsulov əlavə edib ki, Elman Salmanov ifadəsində qeyd edib ki, A.Çovdarov həbs ediləndə o, İlham Xəlilova müraciət edib və pulunun generaldan alınaraq geri qaytarılmasını istəyib:** "Amma İlham ona təklif edib ki, birlikdə A.Çovdarova qarşı ifadə versinlər. İlham Xəlilov Elman Salmanova deyib ki, "sən mənim dediklərimin əksini dedikdə mənim ifadəm şübhə altına düşür. Sənə 10 sot torpaq təklif edirəm. Mən deyən şəkildə ifadə ver". İlham bunun üçün Elmana pul da təklif edib. Amma o, bunu qəbul etməyib. Elman onu da söylədi ki, İlhamın dediklərinin yalan olduğunu məhkəmədə başa düşüb".

**Məhkəmədə Akif Çovdarov da deyilənlərə münasibət bildirib. Vəkilin sözlərinə görə, A.Çovdarov istintaqdan narazılığını bildirərək bunları söyləyib:** "Narazılığım budur ki, belə yalançı, şərəfsiz adamları generallarla üz-üzə qoyublar. Onlara generallara qarşı ifadə verdirirlər".

Məhkəmə prosesi günün ikini yarısında davam etdirilib.

**İclas zərərçəkmiş Bədəlov Xakir Dilənçi oğlunun epizodu üzrə davam edib.**

**Bədəlov qohumu Zakir Mustafayevdən faizə 100 min dollar pul alıb. O, istintaqa deyib ki, aldığı pulu 125 min dollar olaraq geri qaytarıb. Onun sözlərinə görə, qohumu Zakir Mustafayev onu MTN vasitəsilə hədələyərək əlavə 150 min, daha sonra isə 200 min tələb edib.**

"Qohumum Zakir Mustafayev evimin birinci mərtəbəsində kafe açmaq təklif etdi. Mənə borca pul verdi. 2006-cı ildə 60 min, bir neçə ay sonra 30 min dollar verdi. İşləri tamamlaya bilmədiyim üçün əlavə 10 min dollar da verdi. Zakir Mustafayev pulları ayına 5% olmaqla qaytarmamı istədi. Mən də razılaşdım. Zakir Mustafayev dedi ki, Bakıxanov qəsəbəsindəki evini tikəndə ona 150 min dollar verərəm. Zakir Mustafayev ona verəcəyim pulu dayısı oğlu Abdul Həbibova verməyimi istədi. 125 min dollar Abdul Həbibova verdim. Sonra o zəng edərək yenidən məndən 150 min tələb etdi. Vermədikdə Zakir Mustafayev məni silahla hədələdi. Mən bankdan kredit götürüb, o pulu da verdim. Sonra məni MTN-dən Səlim Məmmədov çağırdı. Qonşum Tofiq Əliyev dedi ki, Səlim Məmmədovun yanına gedim. Mənə deyildi ki, Zakir Mustafayevə 200 min borcum var. Onu ödəməsəm ölkədən deportasiya ediləcəm. Şəxsiyyət vəsiqəmi əlimdən aldılar. Akif Çovdarov da mənim qohumumdur. Mən prezidentə müraciət etdikdən sonra yenidən şəxsiyyət vəsiqəsi aldım".

**Səlim Məmmədovun vəkili Cavid Rzazadə musavat.com-a deyib ki, Zakir Bədəlov ifadə verərkən ziddiyyətlər olub:** "Zərərçəkmiş istintaqa dediyini təsdiqləyir. Amma məhkəmədə fərqli fikirlər bildirdi. Biz də məhkəmədən tələb etdik ki, istintaqa ifadəsi elan olunsun, ancaq məhkəmə buna ehtiyac olmadığını dedi".

**Vəkil məhkəmədə baş verənlərlə bağlı bunları əlavə edib:** "Zərərçəkmiş Zakir Bədəlov MTN zabiti Səlim Məmmədovun dostu Tofiq Əliyevin qonşusu olub. Bədəlov qonşusundan xahiş edib ki, Akif Çovdarovla görüşməsinə kömək etsin. O, Tofiq Əliyevdən Səlim Məmmədov vasitəsi Çovdarovun yanına aparılmasını istəyib. Amma Səlim Məmmədov Çovdarovun vaxtının olmadığını deyərək bu görüşü ləngidib. Ancaq sonradan Zakir Bədəlovun MTN-ə çağırılması başqa iş üzrə olub. Buna da Akif Çovdarov aydınlıq gətirdi".

**Cavid Rzazadə deyib ki, Çovdarov məhkəmədə çıxışında bunları söyləyib. Sitat:** "Mən Gürcüstan daxili işlər nazirinin müavini ilə danışdım. Mənə bildirdi ki, Gürcüstana külli miqdarda narkotik vasitə keçirilməsi ilə bağlı onlarda məlumat var. Bizdən 6 telefon nömrəsinin dinlənilməsini istədi. Həmin şəxslərdən biri də Zakir Bədəlov idi. Buna görə də onu MTN-ə dəvət etdik. Onun agent kimi işləməsini də düşünmüşdük. Amma onunla danışıq zamanı aydın oldu ki, narkotik işi ilə əlaqəsi və məlumatı yoxdur. Onunla kiməsə pul borclu olması məsələsi haqda danışıq olmayıb. Şəxsiyyət vəsiqəsinin alınması da yalandır. O, MTN-ə gələndə buraxılış məntəqəsində vəsiqəsini təqdim edib yuxarı qalxıb. Oradan da alıb gedib".

C.Rzazadə qeyd edib ki, bu epizod üzrə şahidlərin dindirilməsi növbəti prosesdə davam edəcək.

Məhkəmənin növbəti iclası yanvarın 18-nə təyin edilib.

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ **İlkin MURADOV**



## Lənkəranskinin 5 metrlik abidəsi Bakıya gətirildi

**Azərbaycanlı "qanuni oğru", İstanbulda öldürülən Rövşən Lənkəranskinin məzarüstü abidəsi hazırdır.**

Cebhe.info-nun məlumatına görə, Lənkəranskinin Hindistanda hazırlanan məzarüstü abidəsi əvvəlcə Türkiyəyə, ordan isə Azərbaycana gətirilib.

Heykəl - abidənin hündürlüyü 5 metrə qədərdir. Məlumatda o da bildirilir ki, hazırda heykəl Binəqədidə məzarüstü abidələr hazırlanan sexdə saxlanılır və üzərində son tamamlama işləri aparılır.

Qeyd edək ki, məzarüstü abidənin əsas hissəsi Rövşən Lənkəranskinin qardaşı Namiq Canıyevin sifarişi ilə Hindistanda hazırlanıb.

# Deputat və iki partiya sədrinin məzhəb davası

**Böyük Quruluş Partiyasının (BQP) sədri, deputat Fazil Mustafa ilə ADP sədri Sərdar Cəlaloğlu arasında günlərdir davam edən qarşıdurma səngimir. Hər iki partiya rəhbəri bir-birinin ünvanına ağır ittihamlar səsləndirirlər. F.Mustafa ilə S.Cəlaloğlu arasındakı söz savaşına Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev də qoşulub.**

Qeyd edək ki, deputatla ADP sədri arasındakı davaya səbəb F.Mustafanın qarşı tərəfi İrana işləməkdə, öz növbəsində əks tərəfin də BQP rəhbərini məzhəb qarşıdurması yaratmaqda, Azərbaycanı Suriyaya çevirmək cəhdində suçlamasıdır.

Ə.Əliyev və deputat arasındakı davaya isə VİP sədrinin müavini Cavid Cabbarlının F.Mustafanın vaxtilə Azərbaycan hakimiyyətinin ünvanına işlətdiyi sərt ifadələri üzə çıxarması səbəb olub. Deputat öz facebook səhifəsində VİP sədrinin müavininə sərt cavab. Nəticədə Ə.Əliyev öz müavinini qorumağa məcbur olub və sosial şəbəkələrdə ona qəzəbli status həsr edib.

**F.Mustafa "Yeni Müsavat"a açıqlamasında iki partiya rəhbəri ilə davam edən qarşıdurması ilə bağlı bunları dedi:** "Kiməsə qarşı ittihamlar səsləndirmirəm. Şəxsimə qarşı çoxlu böhtanlar var. Bu böhtanlar da daxili qaynaqlı böhtanlar deyil. Sadəcə, mətn kənardan ötürülür, bu istiqamətdə də hər kəs kiminsə xoşuna gəlmək üçün bu prosesə qoşulur və bizə, tezislərimizə qarşı opponentlik etmək istəyirlər. Burada vaxt məsələsi maraqlıdır. Hansı vaxta bunlar təsadüf edir? Açığı, bu şəxslərin indiki vaxtda bu prosesə qoşulmaları məni çox təəccübləndirdi. Təqribən gözlədiyim situasiyadır. Əslində məsələnin bu yerə qədər gəlməsi cəmiyyətin xeyrinədir. Çünki cəmiyyət artıq açılan sifətləri görməyə başlayır. Bizim açıq tezislə söylədiyimiz bir şey var ki, bu ölkənin maraqları var. Bu ölkənin maraqlarına qarşı olan fikirlərə sərt mövqeyimizi ortaya qoymalıyıq. Maraqlarımıza zidd olan başlıca amil müsəlman ölkəsi sayılan İran adlı bir dövlətin Ermənistanla əməkdaşlıq etməsidir. Biz bu əməkdaşlığa qarşıyıq. İran müstəqil dövlətdir və istənilən ölkə ilə əməkdaşlıq edə bilər. Amma biz deyirik ki, o zaman bizim əraziləri işğal edən bir dövlətlə əməkdaşlıq edirsənsə, müsəlmanlıqdan danışmayın. Təəssüflər olsun ki, bu ölkəyə simpatiya bəsləyən insanlardan biz buna etiraz görmürük. Bunu görməyəndə narahat olmağa başlayırıq ki, bu insanlar kritik bir məqamda öz dövlətimizi, yoxsa başqa dövləti qoruyacaqlar. Artıq əmin oluram ki, bu insanların çoxu Azərbaycanı qoruma marağından çıxış etmək niyyətində deyillər. Ölkəmizə qarşı bu insanların həssaslıqları qonşu ölkələrə olan həssaslıqlarından qat-qat azdır. İslam Partiyasının təmsilçisi olan şəxslər indi bizə Azərbaycan cəmiyyətində olan əxlaq dəyərlərini inad kimi göstərməyə çalışırlar, guya əhalinin bir kəsimi barədə təhqiramiz fikirlər səsləndirmişik. Qətiyyən belə deyil, bizim heç kəsin inancı ilə işimiz yoxdur. Bu partiyanın da fəaliyyəti hər kəsə məlumdur. Vaxtilə dövlət çevrilişində ittiham olunublar, sonradan fəaliyyətləri də birmənalı qarşılanmır. Başqa yerdən təlimat alanlar nə zamansa dövlətimizə qarşı potensial silah çevirə biləcək şəxslər ola bilərlər. Mən bunun həyəcanını qaldırıram. Əgər bir şeyx, yaxud dini lider insanları bir sözü ilə ayağa qaldırmaq gücündədirsə, biz bu təhlükəni nəzərə almalıyıq. Bunları vətəndaş olaraq cəmiyyətə demək borcumdur. Kimsə demişə, kimsə gizlənirsə, özü bilər. Heç olmasa bunu deyənlərə mane olmasınlar. Görsünlər ki, gerçək təhlükə mənbəyi haradandır. Fikirlərimə irad bildirənlərin bu hüququdur. Lakin biri mənə böhtan atanda bunu cavablandırıram. Azərbaycan dövlətinin modelini Rəsulzadənin qurduğu sistem üzərində görürəm. Bunlar öz fikirlərim deyil, Rəsulzadənin tezisləridir. Özünüzə qəhrəman axtarırsınız, ən böyük qəhrəmanımız Rəsulzadədir. Arzuladığımız sistemi o qurub, sizlər nə axtarırsınız? Mədəni polemika üslubunda bizə cavab yazanlara sözlərimizi deyirik. Böhtan yazanlarla sərt üslubda danışırıq. Mədəni müzakirələrin tərəfdarıyam. Kimsə yekəxana şəkildə bizimlə danışırsa, əmin olsun ki, bu bizə keçmir. Şəxsiyyətimizi, mövqeyimizi hər zaman müdafiə etməyə hazırıq".



**Fazil Mustafa:**
"Bu ölkənin maraqlarına qarşı olan fikirlərə sərt mövqeyimizi ortaya qoymalıyıq"



**Sərdar Cəlaloğlu:**
"Yazdıqları əlimizdədir"



**Əli Əliyev:**
"İqtidarın "oyunçusuna" çevrildi Fazil bəy"

**Deputat S.Cəlaloğlunun elmi məqaləsinin böhtanlarla dolu olduğunu qeyd etdi:** "Şəxsimə yönəlik ittihamlarla dolu məqalə yazıb. Özündən mənə məzhəb uydurub. Deyirəm ki, sübut elə, deyir ki, heç nə bilmirəm axı. Məzhəbçiliyə qarşı ən çox mübarizə aparan insanlardan biriyəm. Məzhəbçilik axmaqlıq, anormallıqdır. Bundan açıq nə deməliyəm? Bunlar başqa ölkənin tezislərini əsaslandırmaq üçün yazılmış yazılardır. Deyir ki, guya biz filankəslərin siğədən əmələ gəldiyini demişik. Bəli, belə sözlər deyilib, İran saytlarında yerləşdirilib. Oradan da sizə tapşırıq verilib ki, bunu gündəmə gətirin. Bunu gətirməklə gündəmə qaçası deyilik ki. Dövlətimizi bunlara qurban verə bilmərik".

**BQP rəhbəri Ə.Əliyevlə yaranan narazılığına da aydınlıq gətirdi:** "Əli Əliyev öz müavininin guya maraqlarını qorumaq üçün belə reaksiya verdi. Heydər Əliyevlə, eləcə də, bu hakimiyyətlə bağlı vaxtilə dediklərimi gündəmə gətirir. Hamı bilir ki, 2003-cü ilə qədər bu iqtidara qarşı ən sərt mövqedə olmuşam. 2004-cü ildən bu kursdan imtina etmişəm. Konstruktiv müxalifətçilik kursu seçmişəm, burada təəccüblü heç nə yoxdur. Baxışlarım xeyli dəyişib. Bugünkü mövqeyimi haqlı sayıram. Müavini yazır ki, "Azərbaycan xalqına bic deyən Fazil Mustafa. Sən özün bicsənsə, bunun xalqımıza nə dəxli?" Bu tezis onun özünə aid deyil. Qonşu ölkənin təlimatı ilə saytlarda yerləşdirilir. Əli Əliyevlə normal münasibətlərimiz var. Amma mənə saxta parlamentdən danışanda gülüb keçirəm. Əgər düzgün siyasət aparırdınsa, o zaman 2005-ci ildə İsa Qəmbərə qarşı çıxışının mətnini cəmiyyətə təqdim et. Görsünlər ki, nə qədər burada səmimi idin. Hamamın yanında yaşamaq hələ təmiz olmaq deyil ki".

**ADP sədri isə F.Mustafanı uşaqlıq illərindən tanıdığını söylədi:** "Müəyyən müddətdə onunla xətir-hörmətimiz olub. İndinin özündə də kifayət qədər ona hörmətim var. Sadəcə, onun Şah İsmayıl və şiələrlə bağlı dediklərinin ziyanlı olduğunu, bu proseslərin təhlükəli həddə çatdığını nəzərə alıb siyasətçi kimi mövqeyimi bildirməyi qərara aldım. Onun özü demişdi ki, elmi cəhətdən ona cavab verim. Mən də tarixi faktlardan çıxış edərək ona cavab yazdım. Əlavə olaraq, jurnalistlər də onunla bağlı mənə suallar verdilər. Mən bildirdim ki, təriqətlərarası qarşıdurmaları qızışdırmaq düzgün deyil. Onun üçün xarakterik xüsusiyyət var. Çalışır ki, qarşıdakı ilə bağlı təhqirlərə yol versin, onu aşağılasın. Mövqeyini bu cür ifadə edir. Mənimlə bağlı jurnalistin sualına aramızdakı hörməti nəzərə almayaraq, yaşına-başına baxmadan ağzına gələnləri demişdi. Açığı, məndən jurnalist bu barədə cavab almaq istəyəndə dedim ki, onun tərzində cavab vermək istəmirəm. Təhqirlər həqiqətlərin üzə çıxmasına mane olur. İnsanın arqumenti olmayanda söyüşə qaçır. Mənə təhqiramiz cavab verəndən sonra dərhal facebook səhifəsindəki statuslarını pozub. Çünki əsasən o statuslara istinad edərək cavablarımı verirdim. İndi də yazıb ki, onlar eşələnirlər, guya hansısa faktlar tapacaqlar. Bilmir ki, pozsa da, yazdıqları əlimizdədir, saytlar da bu yazıları dərc ediblər. Xəbəri yoxdur ki, onun statusları hansı saytlarda gedib. İzləri itirdiyini düşünür və meydan sulamağa başlayır. Onu günahkar çıxarmaq istəmirəm. Məqsədim bu kampaniyanın dayanmasıdır. Şiələr onu təhqir edən yazılar yazırlar. Mən də bunları istəmirəm. Fərqi yoxdur ki, şiələr, yaxud sünnilər kimisə təhqir etdilər".

**Ə.Əliyev müavininin müdafiəsi üçün facebook səhifəsində geniş status paylaşıb. O, deputat barədə bir sıra ittihamlar səsləndirib:** "Fazil Mustafa müavinim Cavid Cabbarlı haqda sərt və hesab edirəm ki, bir qədər də təhqiramiz ifadələrə yol verib. Əgər biz Cavid bəylə birgə fəaliyyət göstəririksə, bu ifadələrin şəxsimə də aid olduğu qənaətindəyəm, deyilənlərə qısa aydınlıq gətirmək istəyirəm.

Fazil bəyi savadlı və prinsipial bir şəxs kimi tanımışam. İnanıram ki, o, deyəcəklərimin səmimi olduğuna şübhə etməyəcək.

Hörmətli Fazil bəy başqa yazısında düz oyunçu olduğundan söz açır. Mənə elə gəlir düz oyunçu yox, düz siyasətçi olduğunu desə idi, fikri inandırıcı olardı. Əslində təhtəlşüur deyimidir. Həqiqətən də YAP-ın diktə etdiyi şərtlərdə sistemdəkilər özlərini oyunçu duyurlar. Bəlkə də dolaşıblar baş verənlərdə.

İstənilən şəxsin qələmindən çıxan, idrakından süzülən fikir, ideya, nümayiş etdirdiyi davranış onun şəxsiyyətini səciyyələndirir. Fikir və əməldə vəhdət yoxdursa, yaxud illər keçdikcə davranışda dissonans qabarırsa, şəxsiyyətin bütövlüyündən danışmaq olmur. Siyasətçi üçün isə bu keyfiyyət həlledicidir. Çünki siyasətçi cəmiyyətin etimad ünvanı olmalıdır. Natamam, ziddiyyətli ünvan isə inanmıram ki, faydalı olsun. Yazıda Fazil Mustafanın 2003-cü il yazısını nümunə kimi gətirdim. 2005-ci ildən isə Fazil bəy təhqiramiz yanaşdığı hakimiyyətin parlament dayağına çevrilib. 3 çağırışdır ki, müxalifətin və cəmiyyətin saxta gördüyü seçki nəticəsində millət vəkili statusu alır. Hörmətli Fazil bəy gözəl bilir ki, millətimizin istismarı həm də bu saxta parlament vasitəsilə icra edilir. Necə oldu ki, təhqiramiz epitetlərə tuş gətirdiyi iqtidarın "oyunçusuna" çevrildi Fazil bəy? 2003-cü ildən 2005-ə nə dəyişdi? Ölkədə bilməyən varmı ki, hakimiyyətin istismar alətləri arasında parlamentin xüsusi önəmi vardır?

Düzdür, etiraf etməliyik ki, Fazil bəy iqtidarın açıq dəstəkçisi heç zaman olmayıb. Çalışıb ki, həmişə imicini hifz etsin.

Fazil Mustafa müavinim Cavid Cabbarlını təhqir edib. Bu hərəkət özünə ziyalı deyən şəxsə yaraşmaz. Hər insan davranışı ilə daxilini ortaya qoyur. Təəssüf edirəm ki, mütəmadi təhqirləri sağa-sola fırladan Fazil bəyi bu tərəfdən tanıdım. Həqiqətən də düz deyiblər, "Alim olmaq çətin iş deyilmiş". Bir də "Elmsiz elm heç nə, kəllə suyu"".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017

# Qırğızıstanda qəzaya uğrayan Türkiyə təyyarəsi ilə bağlı sensasion iddia - Həmid Herisçi yazır

## "Manas" hərbi bazasına eniş edərkən düşən və 37 can alan hava gəmisinin terror qurbanı olması ilə bağlı iddialar var; "Riana" qətliamından sonra THY təyyarələrinin açıq hədəf olması barədə proqnozlar verilmişdi






**Yeni il gecəsi İstanbulun "Reina" gecə klubunda baş verən terror mövzusu, deyəsən, hələ uzun müddət "Yeni Musavat"ın diqqət mərkəzində qalacaq. Mövzu ilə bağlı son araşdırmamızda, cinayət ipuclarının bircə dəqiq ünvana - Qırğızıstandakı "Manas" hərbi bazasına getdiyini vurğulamağımız, deyəsən yavaş-yavaş öz təsdiqini tapmaqdadır. Qısası, "Manas" mövzusu ətrafında izahsız, səbəbsiz qanlı hadisələr hələ də davam edir, səngimək bilmir. Ötən araşdırmamızda yazmışdıq:**

"Kələfin bir ucu beləliklə gedib çıxır Bişkekdəki "Manas" bazasının dəmir qapılarına. Vaxtilə burdan yönləndirilən gizli casus müharibələri hələ uzun zaman bu, yaxud digər şəkildə davam edəcək. Pentaqon Hərbi Kəşfiyyatı, bir vaxt bu bazaya anasının əmcəyini kəsmiş yüzlərlə uyğur, bəluc, əfqan, çeçen, dağıstanlı terrorçunu yığır. Başlayır onlara təlim-tədris dərsləri öyrətməyə. İstanbulu yeni il ərəfəsində al qana boyamış uyğur terrorçularının mənşəyini, izlərini, dəst-xətlərini öyrənmək istəyiriksə, gərək öncə mütləq bu bazada təlim görmüş digərləri barədə geniş biliklərə yiyələnək".

Ağzımız falmış. Aradan 10 gün keçməmiş, "Manas" bazasının adı növbəti qanlı bir hadisə ilə gündəmə qayıdıb, bütün dünya ictimaiyyətinin fikrini silkələyir:

"Bu gün 16 yanvar səhər saat 07-29-00 radələrində Türkiyə şirkətinə məxsus "Boeing 747-400" yük təyyarəsi Bişkekin "Manas" hərbi bazası yaxınlığında qəzaya uğrayıb. Qəza nəticəsində ekipaj üzvləri, qəsəbə sakinləri də daxil olmaqla, 37 nəfərin həlak olduğu ürək ağrısı ilə bildirilir. Qırğızıstanın Nəqliyyat Nazirliyi qəzaya uğrayan yük təyyarəsinin mərkəzi ofisi İstanbulda yerləşən "ACT" Hava Yolları yükdaşıma şirkətinə aid olduğunu bəyan edib. Qırğızıstan Respublikası baş nazirinin müavini Muhambetkalıy Abulkaziyevin sözlərinə görə, təyyarə Honk-konq-Bişkek-İstanbul reysi üzrə uçurmuş.

Bəzi qaynaqlar qüllənin təyyarəyə səhv istiqamət verdiyini və qəzanın bu səbəbdən meydana gəldiyini iddia edir. Bu iddia təxribat ehtimalını daha da gücləndirir.

Qəzada ölən istefada olan hava generalı Kazım Öndül, Əfqanıstanda xidməti vəzifə yerinə yetirən, 2009-cu ildə ABŞ dövlət katibi Hillari Klinton tərəfindən tərifə layiq görülən bir hərbçi olub.

Düşən təyyarə 2003-ci ildə "Boeing" tərəfindən istehsal edilib. 124 ton yük daşıma qabiliyyətinə malik olan təyyarə, 5 min 230 kilometrlik mənzilə qədər məsafəni qət edə bilir. Saatda ən çox 922 kilometr sürətə çıxa bilən "Boeing 747-400F" -də iki pilot vəzifə yerinə yetirir.

***

Beləliklə, söhbətimizin əzəl mübtədası "Manas" hərbi bazasıdır, yadda saxlayın.

ABŞ hərbi kəşfiyyatı, 2001-ci ildə, 11 sentyabr olaylarından dərhal sonra bu bazanı gözaltı edib başlayır oranı gizlincə öyrənməyə. İştaha diş altındadır. Ac, pulsuz qırğız siyasi elitası əvvəlcə təklif edilən 2 milyon dollara razılaşır. Sonra hərifləndiyini duyub bu məbləği 11 milyonadək yuxarı qaldırıb yenə öz






nazından qalmır. Vaxtaşırı, boş əlini cibindən çıxararaq Pentaqonun səbrini yoxlamağa başlayır. O vaxtlar təkcə "Manas" deyil, Özbəkistandakı Karşı-Xanabad hərbi-hava bazası da Pentaqonun kirayəsinə verilib əvvəlcə ildə 10 milyon, sonra 163 milyon dollar pul gətirirmiş bu dövlətlərin kasıb, içində siçan oynayan xəzinələrinə.

11 sentyabr qanlı terror aktlarından sonra Pentaqon bir çox ölkələrin xüsusi xidmət qurumları tərkibində "Antiterror mərkəz"ləri yaratdığı zaman "Manas", "Karşi" bazaları yada düşür. Pentaqon bu ünvanlarda reqional "Antiterror mərkəzi" yaradıb başlayır orda MDB xüsusi xidmət qurumları nümayəndələrinin təlim-tədrislərinə. Lakin bu, işin ancaq rəsmi tərəfidir. Gündüzlər bu ünvanlarda rəsmi dövlət nümayəndələri təlim keçir, gecələr isə...

Gecələr isə... əli qanlı çeçen, dağıstan, uyğur, tatar, əfqan, bəluc, İran terrorçuları...

***

İlqar Əliyev, qazamatda müəmmalı şəkildə qətlə yetirilmiş sabiq MTN zabiti, ssenarinin Azərbaycana aid hissəsini heyf özü ilə birgə cəhənnəmə apardı. Diri qalsa, o, bizə bu bazada təlim keçən Azərbaycan yaraqlıları barədə müfəssəl, tam məlumatlar ötürər, "Manas"dakı bu "Sirlər bazası"nda əslində nələrin baş verdiyini bittə-bittə, cümlə-cümlə saatlarla danışardı. Amma...

**Amma indi görün dövri mətbuatda İlqar barəsində nələr danışılır:** "Ləğv olunmuş MTN Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyev E.Mahmudov vəzifəsindən çıxarılandan dərhal sonra - 2015-ci il oktyabrın 17-də həbs edilmişdi. Az bir vaxtda İ.Əliyevə ittiham elan edib, onu Bakı İstintaq Təcridxanasına (BİT) göndərmişdilər. İ.Əliyev BİT-də 2 aya yaxın qaldı və 2015-ci il dekabrın 20-də onun kəndirdən asılmış meyitini saxlanıldığı kamerada aşkar etdilər. Bu gün də onun ölümünün üzərində sirr pərdəsi qalmaqdadır..."

***

Ancaq "Manas" bazasının əsl sirri inanın heç bu da deyil. "Nədir, yaxşı, bu bazanın əsl sirri" sualına cavab verməmişdən öncə xahiş edərdim indi eşidəcəkləriniz barədə kənar şəxslərlə çox danışmayasız. Səsinizi, söhbətlərinizi xırp yarıdaca kəsib, mənə diqqətlə qulaq asasız.

Demək, belə. Əsl həqiqət tam başqa məzmunlu olub bu başıbəlalı ünvanda. Biləndə ki, Pentaqon "Manas"da öz gizli bazasını açıb Rusiyanın tabutuna son mismarını vurmaq istəyərkən, rus hərbi kəşfiyyatı QRU, "MOLE" kod isimli agentin rəhbərliyi altında çox ciddi hiyləyə əl atır. Bazanı başdan-ayağa dinləmə böcəkləri ilə bəzəyir. Uçan pilotsuz təyyarələr və sair və ilaxır məxfi texniki cihazlar vasitəsilə bazanı tam nəzarətə götürüb başlayır təlim keçən terrorçuların tam dosyelərini toplamağa. Dosyelər günü-gündən şişir. Bəlli olur baza "Antiterror mərkəzi" yox...yoooooxxx...əsl "Terror mərkəzi" imiş...

Rus kəşfiyyatı QRU, müxtəlif texniki vasitələrdən istifadə edərək gündüzlər burda İlqar Əliyev kimi rəsmi dövlət nümayəndələrini güdür, gecələr isə əli qanlı Dağıstan, Çeçenistan yaraqlılarını.

Tezliklə bəlli olur ki, anasının əmcəyini kəsən terrorçuları "Manas"a xüsusi trafik xətti - "Dubay-Bişkek" təyyarə reysi daşıyır. Dağıstan, çeçen yaraqlıları əvvəlcə gəlirdilər Dubay hava limanına. Burda gizli QRU videokameralarına düşüb, yallah, qanadlanıb gedib çıxırdılar birbaşa adı bədnam "Manas" hava bazasına. Rus əks-kəşfiyyatçıları, beynəlxalq terrorçuların uzun siyahısını məhz bu cür əldə edib sonra girişirlər "Manas"dakı təhsil proqramlarına. Partlayış, təxribat əməliyyatlarının bütün incəliklərini, ssenarilərini, texniki sənədlərini oğurlayıb gətirirlər Moskvaya. Bax bu zaman, gözləri qarşısında həqiqətin əsl siması, əsl qanlı, sirli mənzərəsi açılır.

2005-ci ildə məsələ gizli şəkildə Şanxay Əməkdaşlıq Şurası (ŞOS-da) üzvləri - Rusiya, İran, Çin xüsusi xidmət qurumları arasında müzakirəyə çıxarılır. Sammit iştirakçıları o vaxt - yəni 2005-ci ildə, rəsmi bir sənəd qəbul edib Pentaqon şahinlərini bu bazanı bağlamağa səsləyirlər. Sənəd Pentaqon tərəfindən qulaqardına vurulanda QRU hirsindən yerə tüpürür. Bildiklərini başlayır İran, Çin kəşfiyyatçıları ilə bölüşməyə. Çinliləri Manasdakı uyğur terrorçuları maraqlandırır, iranlıları, burda təlim keçən anti-Tehran "Cundulla" yaraqlıları.

***

"Cundulla" ilə qarşıdurmada Rusiya, nəhayət, İranın köməyinə gəlib Tehrana çatdırır ki, "Dubay-Bişkek" hava xətti ilə uçan sərnişinlərə xüsusi diqqət yetirmək lazımdır. Ruslarla iranlılar Bişkekə uçan sərnişinlərin uzun siyahısını vaxtaşırı əldə edib sıralarında onlarla Çeçenistan, Dağıstan yaraqlısını, nəhayət, ən vacibi - "Candulla" üzvlərini, o cümlədən bu terror qurumunun rəhbəri Əbdülmalik Riqini aşkarlayırlar. Bəxt quşu, necə deyərlər, qonur rus əks-kəşfiyyatçılarının başına. Moskvadan Tehrana ötürülən siqnal anında öz təsdiqini tapır. İran qırıcı təyyarələri sağdan-soldan, altdan-üstdən Qırğızıstan hava laynerini əhatəyə alaraq onu Bəndər-Abbas aeroportunda yerə endirirlər. Həbs prosesinə Qırğızıstan güc strukturları maneçiliyi alınmır. Gülməli çıxır. Sonralar rəsmi Tehran Bişkekin bu müdaxiləsinə sərt reaksiya verir. Qırğızıstan rəhbərliyini beynəlxalq terrorizmlə əməkdaşlıqda ittiham edib, bir gözü ilə Haaqa Tribunalına tərəf baxır. Bunu görən rəsmi Bişkek isə susur...

***

Əməliyyatın rus ordu kəşfiyyatı QRU üçün rəmzi məna daşıdığı 23 fevral 2010-cu il tarixində keçirilməsi də, görünür, təsadüfi deyildi. Riqinin həbsindən sonra kütləvi tuthatut Çeçenistanda, Dağıstanda, Tatarıstanda davam edərək Pentaqon kəşfiyyatına güclü və sarsıdıcı zərbə vurur. Əməliyyatın kuratoru, ABŞ Dövlət Departamentinin Pakistan və Əfqanıstan üzrə xüsusi məruzəçisi Riçard Xolbruk, düz həmin tarixdə "Manas" bazasında oturub Riqiylə görüşəcəyi anı səbirsizliklə gözləyirdi. Xəbər gələndə ki, bəs təyyarə yerə endirilib, Riqi həbs olunub, həəəə... Riçard Xolbrukun sağ əli gedir ürəyi üzərinə. Tezliklə o, infarkt keçirib "aorta yırtılması" diaqnozuyla dünyasını dəyişir.

***

"Manas" bazasına qarşı güc tətbiqi o vaxtlar təkcə elə kəşfiyyat əməliyyatları çərçivəsində həyata keçirilmir. Qırğızıstan parlamenti üzvləri, silsilə siyasi aksiyalar keçirib "Manas"a qarşı bir neçə qərar qəbul edirlər. O vaxt da ölkə prezidenti Kurbanbek Bakiyev vəziyyəti münasib görüb istəyir bir az da varlansın. Amerikalılara xəbər göndərir ki, narahatçılığa ehtiyac yoxdu. Əliniz cibinizdə olsun. Gic-gic danışanlara fikir verməyin. "Manas"ın icarə müqaviləsini birtəhər uzadıb işimizi əvvəlki tempdə davam etdirəcəyik.

Ancaq artıq gec idi. 7 aprel 2010-cu ildə xalq etirazlarının hündür dalğası havaya qalxıb prezident sarayının üstündən aşır bir növ. Kurbanbek Bakiyev paytaxtı tərk edib qaçır öz doğma Oş vilayətinə. Sonra ordan da qaçıb gedir, Allah bilir hara...

***

Son zamanlar dövri mətbuat Amerika ilə Rusiya arasındakı gərginliyə xüsusi fikir versə də burdakı bəzi gizlinlərdən əsla xəbərdar deyildir. Həqiqət isə budur - Rusiya ilə ABŞ arasındakı gərginlik ilk növbədə bu ölkələr arasındakı real kəşfiyyat müharibələrindən qaynaqlanır. 2010-cu il 23 fevral tarixindən bu döyüşlərdə hesab çoxdan Rusiyanın xeyrinədir.

Obama-Hillari Klinton administrasiyası bu sahədə kəşfiyyat müharibəsini böyük hesab fərqi ilə ruslara uduzub.

Kopitoliya hündürlüyündə baş verən hakimiyyət silkələnmələri də ilk növbədə məhz bununla əlaqədardır.

***

Qırğızıstanda ötən gün qəzaya uğrayan "Boinq-747" yük təyyarəsinin təxribat nəticəsində yaşayış massivinə düşməsi barədə birmənalı fikir bildirməyə tələsməyə gərək yoxdu. Amma düşüncələrdə təxribat versiyası ilk sıradadır. "Reina" terrorundan sonra Türk Hava Yolları təyyarələrinin terrorçuların hədəfində olması ilə bağlı ekspertlər açıqlama vermişdilər. Bunun çox pis nümunəsi yaxın tariximizdə ABŞ-da baş verdi - 11 sentyabr 2001 tarixində.

***

**Türkiyənin başı üzərindəki qara buludlar bu ölkənin hava gəmilərinin pistlərə eniş-qalxışlarına mane ola biləcəkmi? Təki olmasın. Günahsız insanların zərər görməsi çox acıdı...**

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017

# İqtidarın, yoxsa müxalifətin sonu çatıb?



## Elxan Şahinoğlu: "İqtidar gücünü qoruya bilir, sadəcə..."

**Azərbaycan iqtidarı ilə müxalifətinin bir-birilərinə qarşı münasibətində oxşar cəhətlər var. O mənada ki, uzun illərdir demokratik düşərgə rəqibinin tez-tez sonunun çatdığını iddia edir və bir neçə ilə bunun reallaşacağı ilə bağlı ümidli açıqlamalar verirlər.**

Xüsusilə son iki ildə ölkəmizdə tüğyan edən iqtisadi böhranın fonunda müxalif düşərgə daxilində bu cür fikirlərə artıq tez-tez rast gəlirik. Günlər öncə siyasi partiyalardan birinin ümumrespublika müşavirəsindən sonra qurumun sədri bu tipli açıqlama verərək, artıq iqtidarın sonunun çatdığı barədə fikirlər səsləndirib. Bütün bunlara baxmayaraq, müxalifət liderlərinin sonunun çatdığını dedikləri iqtidar hələ də postundadır.

Eləcə də iqtidarın müxalifətlə bağlı fikirləri bu tipdədir. Yəni hakimiyyət də uzun illərdir rəqib düşərgənin yoxluğundan bəhs edir. Hətta iqtidarın yüksək ranqlı məmurları bəzən müxalifət adını belə dillərinə gətirmirlər, bir növ onların yoxluğu barədə mesajlar ünvanlayırlar. Doğrudur, müxalifət əvvəlki 10 ilə nisbətən zəifləmiş vəziyyətdədir, dayaqları tamam sıradan çıxıb, hakimiyyətə isə alternativ olmaq gücündən tamam məhrum olublar. Amma bu da bir reallıqdır ki, mövcudluqlarını qoruyub saxlaya bilirlər.

**Siyasi şərhçi Elxan Şahinoğlu bildirdi ki, iqtidar hələ də kifayət qədər güclüdür:** "Baxmayaraq ki, iqtisadi və sosial problemlər var, iqtidar gücünü qoruya bilir. Sadəcə, müxalifət zəifləyib ki, bunun da obyektiv və subyektiv səbəbləri var. Müxalifət sistemdən kənardır. Parlamentdə real müxalifət də yoxdur. Siyasi proseslərə faktiki təsir edə bilmirlər. Bu illər ərzində müxalifət özü-özünü də xeyli zəiflədib, yenə də obyektiv və subyektiv səbəblərdən. Görün bir partiya neçə yerə bölünüb. Müxalifətdə iki ən güclü partiya var idi, Müsavat və AXCP. İndi də bu qurumlar özlərini güclü sayırlar. Amma baxın görün Müsavat başqanının gedişindən sonra partiya neçə yerə parçalandı. Demək, hər şey sədrin ətrafında imiş. Xalq Cəbhəsinin rəhbəri rəhmətlik Əbülfəz Elçibəy idi. Onun ölümündən sonra bilənlər bilir ki, partiya neçə yerə bölündü. Müsavatda İsa Qəmbər gedişini açıqlayan kimi artıq qruplar yarandı və qurultaydan sonra dərhal partiya parçalandı. İndi inanmıram ki, bu partiyaların siyasi proseslərə təsir gücləri olsun. Məhz bunun nəticəsidir ki, mitinq keçirmirlər. Bilsələr ki, mitinqlərə on minlərlə insan qatılacaq, mütləq bu aksiyaları keçirərlər. Bu qədər insanı bir yerə yığa bilmədiklərinə görə mitinq keçirə bilmirlər. "Məhsul" stadionunda mitinqə icazə verilir, amma onlar həqiqətləri özləri yaxşı bilirlər. Əli Kərimli son çıxışında buna toxundu. Bildirdi ki, hər zaman mitinq keçirməyə hazırıq, sadəcə, insanlar qatılmırlar, yəni 3-4 mitinq keçirmək halımız yoxdur. İqtisadi vəziyyət ağırlaşır, sosial problemlər gərginləşir. Əslində müxalifətin fəallaşması üçün imkanlar var. Amma sistemdən uzaqlaşdırıldıqları, daxillərində parçalanmalar yaşadıqları üçün proseslərə təsir edə bilmirlər. İllərdir ki, müxalifət iqtidarın sonunun gəldiyini deyir, xüsusilə ölkədə iqtisadi sahədə problemlər yaranan kimi. Amma gördüyümüz odur ki, 20 ildən çoxdur bu iqtidar hakimiyyətini sürdürür. Müəyyən iqtisadi, sosial problemlər olsa da mövcudluğunu qoruyur. İqtidarın daxilində nə baş veribsə, 10-15 il bundan əvvəl yaşanıb. Rəsul Quliyevin timsalında bir sıra şəxslər getdilər. Amma ondan sonra bu tipli hadisələrin şahidi olmamışıq. Öz mövcudluğunu hakimiyyət ona görə var gücü ilə qoruyur ki, özündən sonra başqa qüvvələrin iqtidara gələcəyini yaxşı anlayır. Nə qədər sosial, iqtisadi vəziyyət ağırlaşsa da, nəzarəti əldən verməməyə çalışırlar. Bundan sonra da bu belə olacaq".

❑ Cavanşir ABBASLI



# Danışığını bilməyən deputatlar qanunla cəzalandırılacaq

## Milli Məclis "Deputatların etik davranış qaydaları" adlı qanun qəbul edəcək

**Azərbaycanda deputatların etik davranış qaydaları hazırlanır. Deputatın etik davranış kodeksinin Milli Məclisin yaz sessiyasında müzakirəyə çıxarılması gözlənilir. Sənəddə dövlət qulluqçularında olduğu kimi, deputatın da davranışında, fəaliyyətində, bəyanat və çıxışlarında etik normalar tənzimlənəcək və buna hüquqi müstəvidə yanaşılacaq.**

Qeyd edək ki, Azərbaycanda indiyə qədər parlament üzvləri ilə bağlı belə sənəd mövcud olmayıb.

**Deputat Fərəc Quliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, deputatlar seçilmiş insanlardırlar, amma o da faktdır bəzən bəzi deputatlar gerçəkdən tutduğu məqama yaraşmayan bəyanatlarla, fikirlərlə çıxış edirlər, xoşagəlməz hallara yol verirlər və bütün bunlar da ictimaiyyətdə ciddi narazılıq yaradır. Ona görə də "Deputatların etik davranış qaydaları" adlı qanun layihəsinin ortaya çıxması zərurətdən doğub: "Hesab edirəm ki, zaman keçdikcə, Milli Məclis getdikcə sambalını daha da artırdıqca belə xüsusi qaydalara da ehtiyac qalmayacaq. Lakin indiki halda belə bir sənədin qəbulu lazımdır. Son zamanlarda bir neçə deputatın verdiyi açıqlamalar, nəticədə qalmqalların yaranması onu göstərir ki, bir az özünü daxildən senzura etməyənlərə bu formada müdaxiləyə ehtiyac yaranıb. Bir müddət qaydalar tətbiq edildikdən sonra hər halda, vəziyyət düzələcək və tədricən aradan qaldırılacaq".

**F.Quliyev hələ ki sözügedən layihə ilə ətraflı tanış olmadığını da dedi:** "Parlamentdə İntizam Komissiyası var və davranışlarla bağlı müəyyən təsir imkanları var. Amma son zamanlar siz də şahidsiniz ki, bəzi deputatlar yersiz çıxışlar, yersiz çağırışlar eləməklə, deputat mandatının arxasında dayanıb əlahiddə davranış nümayiş elətdirməklə "Deputatın davranış qaydaları" adlı xüsusi qanun qəbul edilməsi məsələsini zərurətə çevirmiş oldular. Bu sənəd qəbul olunmalıdır və hər halda, qəbul olunacaq. "Davranış qaydalarını pozan deputatlara cəza hansı formada tətbiq edilməlidir" sualına gəlincə, şübhəsiz ki, qanun qəbul ediləcəksə, orada konkret cəzalar da əksini tapacaq. Amma hələ tanış olmadığım üçün hansı cəzaların nəzərdə tutulduğu barədə konkret fikir söyləyə bilmərəm. Hesab edirəm ki, hər halda, deputatlarla bağlı istənilən qayda qəbul olunanda "Deputat statusu haqqında" Qanuna zidd olmamalıdır. Çünki bu konstitusiya qanunudur və qəbul ediləcək qaydalar və cəzalar sözügedən qanunla ziddiyyət təşkil etməməlidir. Orada çox sərt formada, mandatdan məhrum etmə kimi cəzaları "Deputatın statusu haqqında" Qanunla ziddiyyət təşkil edə bilər. Ona görə də hesab edirəm ki, çox sərt cəza nəzərdə tutulmayacaq. Deputatlıq məqamında olan insanlara kiçicik qınaq və rəsmi irad böyük cəza kimi görünə bilər və təsiri də olar".

❑ Etibar SEYİDAĞA

# Hökumətləri vuran iqtisadi böhran oliqarxlara niyə təsir etmir?

**Böyük Britaniyadakı "The Landmark London" hotelində rusiyalı milyarder, "Domodedovo" hava limanının sahiblərindən biri Valeri Koqanın nəvəsi, 19 yaşlı İrina Koqanın ingilis əsilli yəhudi Daniel Kenveylə toy mərasimi keçirilib. Təntənəli mərasimə rus və dünya ulduzları şəxsi təyyarələri ilə gəlib.**

9 saat davam edən toyda dünya ulduzlarından Elton Con, Meray Keri, Antonio Banderas, yerli şou-biznesdən Filipp Kirkorov, Stas Mixaylov, Aleksandr Serov, İqor Nikolayev, Lev Leşenko, azərbaycanlı müğənni Yusif Eyvazovla xanımı, opera sənətçisi Anna Netrebko, eləcə də Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu iştirak edib. Qeyd edək ki, Valeri Koqan 2.5 milyard dollar sərvətə sahibdir.

Görünən odur ki, Rusiya iqtisadi böhran yaşasa da rusiyalı milyarderlərin vəziyyəti bir o qədər pis deyil. Həmçinin Azərbaycanda da hökumətin iqtisadi böhran yaşamasına rəğmən oliqarxlar əvvəlki templə qazanmağa və xərcləməyə davam edirlər. Onların vəsaitləri dollarla saxlanıldığından xarici valyutanın bahalaşması sərvətlərinə sərvət qatır desək yanılmarıq.

Bəs görəsən, bunun sirri nədir ki, iqtisadi böhran hökumətləri və sadə insanları vurduğu halda, oliqarxlara, milyarderlərə təsir etmir?

**İqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, adətən avtoritar rejimlərdə iqtisadi böhranın mənfi nəticələrini aztəminatlı insanların, azad sahibkarların üzərinə yükləyirlər:** "İqtisadi böhrandan ən çox əziyyət çəkən əhalinin aztəminatlı hissəsidir, eyni zamanda kiçik və orta sahibkarlardır. Bu, təkcə Azərbaycanda deyil, Rusiyada və digər Orta Asiya ölkələrində də özünü doğruldur. Belə bir yanaşma var ki, iqtisadiyyatın böyüməsindən daha çox faydalananlar iqtisadiyyatın kiçilməsindən də qazanırlar. Bu gün eyni proses Rusiyada da, Azərbaycanda da gedir. Bir vaxtlar iqtisadiyyatın böyüməsindən qazananlar, neft gəlirlərinin bölüşdürülməsindən böyük pay götürənlər indi iqtisadiyyatın kiçilməsindən müəyyən mənfəət əldə edirlər. Bu sırf siyasi rejimlərdəki idarəçiliklə bağlıdır. Azərbaycanda da vergi ödəyicilərinin sayının artırılması, vergi yükünün daha çox aztəminatlı təbəqənin və sahibkarların üzərinə qoyulması da bu məqsəddən irəli gəlir. Rusiyada da eyni proseslər gedir. Azərbaycanda daha çox Rusiya modeli tətbiq olunur".



**Qubad İbadoğlu:** "İqtisadiyyatın böyüməsindən daha çox faydalananlar iqtisadiyyatın kiçilməsindən də qazanırlar"



**Natiq Cəfərli:** "Dövlət qulluğunda işləyən, yüksək gəliri olmayan şəxslərin dəbdəbəli həyat sürməsi artıq korrupsiyadan xəbər verir"

**İqtisadçı ekspert Natiq Cəfərli isə qeyd etdi ki, biznes sahəsində olan insanların öz vəsaitlərini necə xərcləməsinə irad bildirmək doğru yanaşma deyil:** "Öz vəsaitləridir və onu hansı formada xərcləyirlərsə, bu onların öz məsuliyyəti və ya məsuliyyətsizliyidir. Ancaq hər hansı real gəliri olmadığı halda hansısa dövlət məmuru böyük bir vəsaiti əyləncəyə xərcləyirsə, o zaman həmin vəsaitin mənbəyi sual doğurur. Bu suallara cavab tapmalı olan orqan isə hüquq-mühafizə orqanlarıdır. Hansısa milyarderin övladına dəbdəbəli toy etməsi onun şəxsi işidir və bu mənada ictimaiyyətdə yaranan suallara o özü cavabdeh olacaq. Ən azından portnyorları onu qeyri-ciddi insan kimi qəbul edə bilərlər ki, hazırkı böhranlı şəraitdə vəsaitləri sağa-sola xərcləyir. Bu həmin şəxsin imicinə ziyandır".

**İqtisadçı bu məsələdə dövlət və hökumət rəsmilərinə nəzarətin daha güclü olmasının zəruriliyini vurğuladı:** "Lakin dövlət qulluğunda işləyən, hökumətdə təmsil olunan, yüksək gəliri olmayan şəxslərin dəbdəbəli həyat sürməsi artıq korrupsiyadan xəbər verir və hüquq-mühafizə orqanlarının araşdırma mövzusudur. Ona görə də cəmiyyətdə bəzən paradoksal vəziyyət yaranır. Sadə insanlar kasıblayanda varlı kəsim daha çox varlanır. Bu da siyasi sistemdən, idarəetmə sistemindən, iqtisadiyyatdan və inhisarçılığın səviyyəsindən irəli gələn bir məsələdir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017

# Hökumət dəyişsə, ölkədə korrupsiya və rüşvət azalarmı?

## Əli Məsimli: "Daha çox korrupsiyalaşmış məmurların müasir dövrün tələblərinə cavab verən yeni kadrlarla əvəz edilməsi işin vacib tərəfidir"

**"Korrupsiya qarşı mübarizədə idarəetmənin təşkilatı strukturunun kadr islahatları ilə tamamlamaqla təkmilləşdirilməsi mühüm rol oynayır. Bununla belə, bütün ciddi problemlərin həllinin effektiv üsulu kimi, korrupsiyaya qarşı mübarizənin də magistral yolu cəmiyyət həyatının bütün sahələrini əhatə edən mütərəqqi islahatlardan keçir".**



Deputat, Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Qeyd edək ki, bəzi ekspertlər ölkədə hökumətin dəyişməsini mövcud neqativlərdən çıxış yolu kimi görür. Bu yanaşmanın tərəfdarlarının fikrincə, əgər hökumət dəyişərsə, Azərbaycanda mövcud olan korrupsiya və rüşvət də müəyyən müddətdən sonra aradan qaldırılar, yaxud aparılan mübarizədə effektli nəticələr əldə etmək olar.

Yeri gəlmişkən, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev yanvarın 16-da keçirdiyi mətbuat konfransında korrupsiyaya qarşı mübarizə ilə bağlı bəzi detalları açıqlayıb. Onun sözlərinə görə, 2016-cı il ərzində keçirilmiş 6 əməliyyat tədbiri nəticəsində korrupsiya cinayəti törədən 6 şəxs cinayət başında tutulub. İdarə rəisi qeyd edib ki, bundan əlavə, Baş İdarənin əməliyyat qurumları tərəfindən aparılan araşdırmalar üzrə fakta görə 32 cinayət işi başlanıb. (APA) Dövlət və özəl sektorda çalışan 313 vəzifəli şəxs barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Hazırda Baş İdarənin İstintaq idarəsinin icraatında 116 cinayət işi üzrə istintaq davam etdirilir. Həmin cinayət işlərindən 110 şəxs barəsində 62 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə, 61 şəxs barəsində 56 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dələduzluq, 34 şəxs barəsində 24 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və aşma, 52 şəxs barəsində 10 iş rüşvət alma, 17 şəxs barəsində 14 iş rüşvət vermə, 3 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 1 şəxs barəsində 1 iş səhlənkarlıq, 35 şəxs barəsində 31 iş isə digər faktlarla bağlı olub. Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 202 milyon 629 manat məbləğində ziyanın 33 milyon 249 manat və ya16,6 %-nin ödənilməsi təmin edilib, qalan ziyanın ödənilməsi məqsədilə 78 milyon 283 manat məbləğində əmlak üzərinə həbs qoyulub.

Dövlət başçısı da daim korrupsiya və rüşvətə qarşı mübarizənin zəruriliyi barədə tapşırıqlar verir, həmçinin yaradılan qurum tərəfindən bir sıra işlər görülür. Ancaq bəzi müşahidəçilər sistemli dəyişikliklər aparılmadığı halda, arzuolunan nəticəni mümkün saymır.

**Ə.Məsimli isə hesab edir ki, korrupsiyaya qarşı mübarizə ümumdövlət və cəmiyyətin birgə işi olmalıdır:** "Korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaqdan ötrü dövlət-hakimiyyət orqanları, cəmiyyət və biznesin effektiv kombinasıyasına nail olunmalı, dövləti içəridən yeyib çürüdən, islahatları, sosial problemlərin həllini ləngidən, əhalinin güzəranının yaxşılaşmasına ən ciddi maneə olan bu bəlaya qarşı mübarizədə birgə, əlaqələndirilmiş və sistemli tədbirlərin həyata keçirilməsi çox vacibdir". **Deputat həmin tədbirlərin içərisində aşağıdakı məqamların xüsusi yer tutduğunu vurğuladı:** "İdarəetmənin təşkilati strukturunun müasir dövrün və yeni çağırışların tələblərinə uyğun surətdə və əsaslı kadr islahatları ilə tamamlanmış şəkildə təkmilləşdirilməsi, vitse-prezidentlər institutunun optimal variantda uğurlu formalaşdırılması; hazırkı dövrün problem, təhlükə və çağırışlarına adekvat cavab verə bilən, islahatçı, öptimal olçülü, makroiqtisadiyyatı günün tələbləri səviyyəsində bilən və Azərbaycan reallıqlarını da nəzərə almaqla tətbiq etməyi bacaran, çevik hökumət modelinə keçilməsi; korrupsiyaya qarşı mübarizədə iqtisadi üsullarla inzibati üsulların optimal kombinasiyasına nail olunması; ölkədə qanundan yuxarıda durma probleminin həll edilməsi, hüququn aliliyinin təmin edilməsi; məhkəmə islahatının aparılması və dövlətçilik mövqeyindən müstəqil və səmərəli fəaliyyət göstərən məhkəmə sisteminin formalaşdırılması; inhisarçılığın aradan qaldırılması".

**Ancaq Ə.Məsimli sadalanan bu amillərin də köklü dəyişikliklər üçün yetərli olmadığını vurğuladı. Onun sözlərinə görə, radikal və davamlı islahatların köməyi ilə inhisarlaşmış, korrupsiyalaşmış münasibətlərdən normal institutlaşmış, sivil bazar münasibətlərinin tələblərinə uyğun bazar münasibətlərinə keçilməsi də önəmli məsələdir:** "Eyni zamanda iqtisadiyyatın liberallaşdırılması, iqtisadi azadlıqlar, azad sahibkarlıq və azad rəqabətə, şəffaflıq, hesabatlılığa yol açan və orta təbəqənin genişlənməsinə meydan yaradan islahatların dərinləşdirilməsi, korrupsiya ilə mübarizə üzrə qəbul edilmiş xüsusi qanun və proqramın daha dolğun şəkildə həyat keçirilməsi, dövlət sektorundakı maaşların özəl sektordakı ilə müqayisə olunan səviyyəyə çatdırılması, dövlər strukturlarına çalışanlar arasında yaxşını pisdən, təmizi rüşvətxordan fərqləndirən meyarların tətbiq edilməsi işinin genişləndirilməsi də vacibdir . Eyni zamanda daha çox korrupsiyalaşmış məmurların müasir dövrün tələblərinə cavab verən yeni kadrlarla əvəz edilməsi işin vacib tərəfidir. Bundan əlavə, dövlət işlərində təmiz işləyənlərin təşviqləndirilməsi və önə çəkilməsi üsulunun ənənə səviyyəsinə qaldırılması, korrupsiyaya qarşı mübarizədə dövlətlə yanaşı, cəmiyyətin və biznesin də rolunun artırılması, cəmiyyətin xeyli hissəsinin korrupsiyaya qarşı biganə münasibətinin aradan qaldırılmasına yönəlik tədbirlərin həyat keçirilməsi, onun sağlam və mütərəqqi notlar üzrə müqavimət qabiliyyətinin artırılması və korrupsiyaya qarşı ictimai ikrahın formalaşdırılması, vəzifəli şəxslərin gəlirlərinin hər il bəyannamədə göstərilməsi və onların dərc edilməsi sahəsində qəbul edilən qanunvericilik sənədlərinin reallaşdırma mexanizminin hazırlanması və tətbiq edilməsi kimi məsələlər həllini tapmalıdır".

❑ **Cavid TURAN**

# 30-1 illik münaqişə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Dünyanın ən xroniki münaqişəsi sayılan İsrail-Fələstin probleminin həlli üçün Parisdə beynəlxalq konfrans öz işinə başlayıb. Az öncə BMT Təhlükəsizlik Şurası İsraili işğal etdiyi torpaqlarda məskunlaşmanı dayandırmağa çağırmışdı. Paralel surətdə ikinci ən "stajlı" münaqişə kimi Kipr məsələsinin çözümünə yönəlik yeni diplomatik həmlənin şahidiyik. "Stajı"na görə 3-cü olan Qarabağ ixtilafı isə əfsus ki, hələ dünyanın gündəmində deyil.**

Ermənistanın Azərbaycana ərazi iddiasından doğan Qarabağ konflikti bu il 30-1 "yaşını" qeyd edəcək. Bizim hansı kalibrdə alçaq, məkrli və dəyişməyən bir düşmənlə üz-üzə durduğumuzu isə yəqin ki, izah etməyə lüzum yox. Ermənilərin şəhid əsgərimiz Çingiz Qurbanovun mübarək nəşini 18 gündür girov saxlaması özlüyündə hər şeyi deyir.

Bəs, işğalçı belə cəsarət və həyasızlıq üçün, özündən razı tövr üçün gücü haradan alır? Məgər BMT TŞ-nin Dağlıq Qarabağa dair qətnamələrində Ermənistan işğalçı kimi göstərilməyib, həmin sənədlərdə ondan öz qoşunlarını Azərbaycan ərazilərdən qeyd-şərtsiz geri çəkmək tələb olunmayıb? Olunub. Di gəl ki, cırtdan Ermənistan BMT qətnamələrinə belə tüpürəcək hünər yiyəsidir. Çünki xristian dünyasının nəfəsini daim öz arxasında hiss edir.

Heç Krımı ilhaq edən supergüc Rusiya beynəlxalq sanksiyalardan qaça bilmədi, amma ərazilərimizin 20%-ni 24 ildir işğalda saxlayan, Rusiyanın əyalətindən də kiçik olan Ermənistanın gözünə belə üfürülmür. Ona görə ki, ortada gizli dini təəssübkeşliklə yanaşı, türk faktoru da var - İstanbulun fəthindən üzü bu yana Qərbi, Avropanı 500 ildir rahat buraxmayan türk amili!

Azərbaycan da böyük türk dünyasının ikinci böyük dövləti, Türkiyənin ən güclü və ən etibarlı arxa-dayağı olduğundan, Qarabağ məsələsinə barmaqarası baxılır. Məsələ bundadır. Yəni, qardaş ölkə 53 ildir Avropa Birliyinin qapısında hansı səbəbdən saxlanılırsa, Dağlıq Qarabağ məsələsinin ədalətli həlli də 29 ildir analoji səbəbdən uzadılır.

Rusiyanın maraqları bəlli. Nə Ermənistanı "kiçik bacı" sayan Fransa başda olmaqla Avropa, nə də ABŞ əfsus ki, türk dünyasının güclənməsini, qlobal siyasətdə daha böyük söz sahibi olmasını istəmir. Qərbin Türkiyəyə qarşı PKK, PYD kartından həvəslə istifadə eləməsi də eyni mərama xidmət edir. Erməni kartı isə Türkiyə ilə Azərbaycanı təhdid altında saxlamaq üçün başqa bir güclü rıçaqdır. Qarabağ məsələsində Qərbin diplomatik dişsizliyinin nədənini öncəliklə burda axtarmaq gərəkir.

İndi də deyirlər ki, ABŞ-ın yeni prezidenti Donald Tramp sələfi Barak Obamadan da az diqqət ayıracaq Qarabağ məsələsinə - o da əgər ayrılacaqsa. Deməli, 1 nömrəli məsələmizi dünyanın və ABŞ-ın gündəminə gətirmək üçün yenə özümüz ciddi səylər göstərməli, Azərbaycanın ABŞ və Avropa üçün strateji önəmini artırmalıyıq.

Nə yaxşı ki, rusun satelliti olan Ermənistandan fərqli olaraq, bizim bu yöndə potensialımız böyükdür. Qalır, nəhayət, onu hərəkətə gətirmək, Azərbaycanı Qərb üçün, xristian dünyası üçün vazkeçilməz dövlətə çevirmək. Bundan ötrü güclənməli, güclənməli və güclənməliyik!

Bu yöndə xüsusən də Azərbaycan diplomatiyasının üzərinə müstəsna məsuliyyət düşür. Təbii ki, silahlı qüvvələrimiz də təzyiq amili olaraq, yeri gələndə öz sözünü deməlidir - ötən ilin aprelindəki kimi. Təəssüf ki, apreldəki hərbi uğurumuzu diplomatik uğura çevirə bilmədik və az sonra hər şey köhnə axarına düşdü.

Kim nə deyir-desin, səbəb təkcə xristian amili və ya həmsədrlərin gizli Ermənistan təəssübkeşliyi olmadı. Həm də diplomatiyamızın yetərli səviyyədə çeviklik və adekvat reaksiya göstərə bilməməsi rol oynadı belə bir nəticənin alınmasında.

Bütün hallarda münaqişənin daha bir il "yaşlanıb" 3-cü yubileyini qeyd etməsinə imkan verməməliyik. Belə bir lüksümüz yox! Artıq bir nəsil bu konflikti ötürüb, həll edə bilməyib. Elə olmasın ki, Qarabağ "yükü" nəvələrimizin çiyninə yüklənsin, İsrail-Fələstin münaqişəsi kimi on illərlə uzansın, 30-1 illik münaqişə 301 illik münaqişəyə çevrilsin.

3 on illik artıqlaması ilə yetər.



# Unitaz modeli

Zamin HACI
zaminhaci@gmail.com

**Kasıbçılığın üzü qara olsun, ölkəmizdə işsizlik baş alıb gedir. Təzəlikcə baş prokuror yanında Korrupsiya ilə Qanlı Savaş İdarəsinin (köhnə adı mübarizə idi, sonradan rəhbərlik gördü ki, bunlar bir rüşvətxora da aman vermir, idarənin ayağı dəyən hər yerdə qan su yerinə axır, o üzdən adını dəyişdilər) Kamran Əliyev brifinq keçirdi, 2016-cı ilin yekunlarından danışdı. Kamran müəllim deyir keçən il 10 cinayət işi rüşvət almaq haqda qaldırılmışdır.**

Halbuki idarə 2015-ci ildə 14 rüşvət alma cinayəti qeyd etmişdi. Deməli, millət artıq rüşvət almağa da pul tapmır. Bu, çox mənfi haldır. Bəs biz necə yaşayacağıq? 10-15 rüşvət cinayətinin bu boyda respublika üçün çox az olmasını hələ bir qırağa qoyaq, azala-azala getsə bir neçə ilə tutmağa bir damazlıq rüşvətxor köpəyoğlu da tapılmayacaqdır.

Ancaq müəyyən işıq ucu, ümid yeri vardır. İdarənin statistikasına əsasən rüşvətvermə cinayətində artım olubdur. *(Açığı, mən bunun bizdə cinayət sayıldığını ilk dəfə idi öyrəndim; belə gözəl təşəbbüslər niyə pis qiymətləndirilir, anlamadım. Şair demişkən, sən verməsən, mən verməsəm, necə çıxar peykimiz kosmosa?)* 2015-ci ildə 9 rüşvətvermə halı üzrə cinayət işi açılıb, 2016-cı ildə bu rəqəm 14 olubdur. Məntiqlə, keçən il millətin pulu əlində qalıbdır, rüşvət verməyə adam tapmayıblar.

Bu, bir az pisdir. İqtisadi təşəbbüsləri beşiyində boğmaq *(hardasan, ay Südabə xanım?)* cəhdidir. Eyni zamanda mümkündür bizim məmurlar rüşvəti dollarla alırlar, keçən il isə dollar qıtlığı yaranmışdır. Məsələn, keçmiş MTN generalı Sübahir müəllim şahmat azarkeşi imiş, onun bağ evindən daş-qaşla bəzədilmiş şahmat tapılmışdı.

Pulsuzluq mədəniyyət sahəsində özünü daha kəskin göstərir. Bu həftə Opera və Balet Teatrında balerinaları işdən çıxartdılar, onlar da bəyanat verib AzDramaya qoşulduqlarını açıqladılar. Zarafat edirəm, bu dəqiqə bütün teatrlarda dramatik vəziyyətdir, balerinalara yiyə duran hələlik yoxdur. "Sonalar gölü"ndə - neftin içində üzən sənətkarlarımız hazırda "İldırımlı yollar"da "Leyli və Məcnun" kimi həsrət çəkirlər. Filarmoniya, Dövlət Rəqs Ansamblı, Dövlət Xoru və sairə - hamısında krizisdən ciddi narazılıq toplanmışdır.

Kinoçəkənlər isə "Azərbaycanfilm"in direktoru Müşfiq müəllimdən narazılıq edirlər. Deyirlər oranı sünnət toyu mərasiminə çeviribdir - qohumlarını başına yığıb büdcə vəsaitlərini kefi istədiyi kimi sümürür.

Bu gün-sabah Anar müəllim dövlətin yazıçılara ayırdığı masaj və alt trikotaj pullarının azalmasından şikayətlənib "Ədəbiyyat qəzeti"ni müxalifətin ruporuna çevirsə, təəccüblənmərəm. Bunlar hamısı bağdakı əriyin kontingentidir. Ərik azalan kimi xislətləri üzə çıxır. Deyirlər, 1992-ci ildə Elçibəy hakimiyyətə gələndən sonra bu AYB-ni vecinə almır, pul ənamı vermək bir yana, heç dövlət tədbirlərinə çağırıb kökə qırığı da yedirtmirlər və bir gün bu şərait(sizliy)ə dözməyən Anar müəllim baş nazir Pənah Hüseynin qəbuluna gəlib şikayətlənir: "Niyə bizdən istifadə eləmirsiniz?" Baş nazir təəccüblənir, deyir nə üçün edək, gedin kitabınızı yazın da. Bundan sonra Anar müəllim başa düşür ki, AXC-Müsavat cütlüyündən Fatıya (AYB) tuman olmayacaq, küsüb gedir Türkiyəyə, bir də Surət aləmi qarışdıranda kabab iyinə qayıdır.

İnsanlar və təşkilatlar bir yana qalsın, adi dəmir borularda da etibar qalmayıbdır. Səngəçalda qaz durbası son 1 ayda 3 dəfə partlayıb yanıbdır. Bu durba pullu vaxtımızda niyə partlamırdı? Yetim əlində qoğal əcaib görünürmüş...

Sonda bildirim ki, gərək böhrana baxmayaraq milli birliyimizi azaltmayaq, hökumətin ətrafında sıx birləşək. Unitazımız düşmənlərin gözünə girsin, ürəyini yandırsın. Səhv oxumadınız, "unitaz" - latın dilində elə "birlik" deməkdir.

# "Vəziyyət daha betər olacaq..."




# Ermənistan batır - erməni ekspertlərdən SOS siqnalı

## Aprel döyüşlərindən sonra işğalçı ölkənin iqtisadiyyatı daha sürətlə uçuruma gedir - yeni baş nazir Karapetyan da "yaraya" məlhəm ola bilmədi; toplumdakı apreldən sonrakı qırılma, yeni müharibə xofu isə əhalini daha bədbin ovqata kökləməkdədir...

**Ötən ilin aprelindəki 4 günlük müharibədə Ermənistanın aldığı hərbi zərbə həm ölkə toplumunun ovqatında, həm də əhalinin sosial-iqtisadi durumunda özünü getdikcə daha qabarıq göstərməkdədir. "Yeni Müsavat" xəbər verir ki, bunu artıq yerli analitiklər də etiraf və qeyd edirlər. Eyni zamanda proseslərin daha pis ssenari üzrə inkişaf edə biləcəyi haqda xəbərdarlıqlar etməkdə, SOS siqnalları verməkdədirlər.**

Yerli təhlilçilər belə vəziyyətə görə haqlı olaraq kriminal Sərkisyan rejimini ittiham edirlər. Bu xüsusda istər erməni siyasi şərhçilərinin, istərsə də erməni iqtisadçı analitiklərin son açıqlamaları diqqət çəkməklə yanaşı, işğalçı ölkədəki daxili ictimai fikri və mənəvi ovqatı da yaxşı əks etdirir. Toplumdakı apreldən sonrakı qırılma, yeni müharibə xofu isə əhalini daha bədbin ovqata kökləməkdədir...

***

**"20 il bizə yalan danışdılar ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub və yalnız vaxtı uzatmaq qalır". Bu barədə erməni politoloq Aqasi Yenokyan münaqişə ətrafındakı son durumu və sülh danışıqlarının perspektivini şərh edərkən deyib (publika.az) Onun sözlərinə görə, 2016-cı il ermənilərə Qarabağ münaqişəsinin əsla həll olunmadığını xatırladıb:** "Əvvəl biz yaşayırdıq, işləyirdik və 20 il boyunca dövlətin o fərziyyəsinə inanırdıq ki, münaqişə həll edilib, sadəcə vaxtı uzatmaq lazımdır. Aprel müharibəsi isə göstərdi ki, illər boyu bizə yalan danışıblar və hər şey deyildiyi kimi deyil. Belə çıxır ki, bizim gözlərimizi açdığı üçün düşmən hesab etdiyimiz Azərbaycana minnətdar olmalıyıq" - erməni politoloq qeyd edib.

**Onun əminliyinə görə, Ermənistan münaqişənin həlli yönündə hərəkət etmir:** "Aprel müharibəsindən sonra Qarabağ münaqişəsinin nizama salınmasında iki mərhələ baş verdi. Birinci mərhələdə Ermənistan münaqişənin həll olunması məsələsinə razılaşdı. İkinci mərhələdə isə Azərbaycan təmasları artırmaq istiqamətində işlədi, lakin Ermənistan təmaslardan çəkindi. Hərbi paradda isə hakimiyyət "İsgəndər"ləri nümayiş etdirərək bizi əmin etməyə çalışdı ki, Azərbaycandan üstünük. Lakin reallıq fərqlidir. Həmçinin, ərazilərin qaytarılması məsələsi gündəmə gəldi. 2017-ci ildə Ermənistanda seçkilər gözlənilir və güman ki, ərazilərin qaytarılması, münaqişənin həlli məsələsi əsas müzakirələrdən biri olacaq. Bütün bunlara baxmayaraq, bizim münaqişənin həlli istiqamətində hərəkət etmədiyimiz dəqiqdir".

## "20 il bizə yalan danışdılar ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub və yalnız vaxtı uzatmaq qalır"

***

**Erməni tanınmış iqtisadçı Aşot Yeqizaryan isə Karen Karapetyanın baş nazir kimi 100 günlük fəaliyyətini şərh edərkən deyib ki, ölkə iqtisadiyyatının indiki durumu Karapetyan baş nazir təyin edilən günlə müqayisədə daha ağırdır. 1 in.am-a danışan iqtisadçı ekspert qeyd edib ki, Ermənistan iqtisadiyyatının vəziyyəti, yumşaq desək, xəstədir:** "Həmin təyinat zamanı kifayət qədər çox gözləntilər var idi. Amma 100 gün sonra situasiya daha betər olub. Hansısa uğurdan söhbət belə getmir, çünki belə uğur, sadəcə, yoxdur. Ermənistan özünü Rusiyaya "calaq etdikcə", - hansı Rusiya ki, ona qarşı bütün dünyada təcrid siyasəti aparılır, - heç bir inkişaf olmayacaq" - Yeqizaryan qeyd edib.

**Onun sözlərinə görə, Ermənistan özü-özünü hər hansı alternativ inkişafdan, istənilən qəbildən olan müstəqil seçimdən məhrum edib və xarici iqtisadi siyasət aparmaq imkanında deyil.** "Bizim seçim imkanımız yoxdur. Biz Avropa Birliyindən imtina eləmişik. İrandan imtina edirik. Bizi seçmək imkanından məhrum ediblər. Bu şərtlər və şərait qaldıqca, situasiya daha da ağır olacaq", - deyə o əlavə edib.

***

Bu qənaətlə sözsüz ki, razılaşmamaq qeyri-mümkündür. Ancaq erməni ekspertlər bir həqiqətdən danışarkən başqa acı həqiqəti söyləməkdən nədənsə çəkinirlər. Məsələ ondadır ki, Ermənistanın düşdüyü ağır sosial-iqtisadi durumun baş səbəbi məhz Dağlıq Qarabağ ixtilafıdır, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasıdır. Yerdə qalanlar - Rusiyanın quberniyasına çevrilmək, "iqtisadi seçim imkanlarını itirmək", sürətli emiqrasiya, "Rusiyaya calaq olmaq" - hamısı nəticələrdir, səbəb yox.

İşğalçı ölkə Azərbaycandan torpaq qoparmaq naminə Rusiyanın satelliti olmağa razılaşdıqca onun vəziyyəti heç vaxt yaxşılaşmayacaq - bu, aksiomdur. Çünki Moskva məsələdə İrəvanın müttəfiqi və işğal ortağı olsa da, Qarabağ probleminin birdəfəlik həllini də arzulamır. Sadəcə olaraq, Dağlıq Qarabağ məsələsindən Azərbaycan və Ermənistanı öz siyasi-hərbi orbitində saxlamaq üçün istifadə edir.

Demək, çarə yenə ermənilərin özünədir: ya Azərbaycan torpaqlarına olan iştahlarından, eləcə də Türkiyəyə, Gürcüstana ərazi iddiasından əl çəkib, bütün qonşularla dinc-yanaşı yaşamaq, iqtisadi inkişaf etmək yolu seçmək, gec də olsa, iri regional layihələrə qoşulmaq, ya da indiki kimi, Rusiyanın marioneti qismində həmişə miskin kökdə olmaq, izolyasiya şəraitində yaşamaq, böyük emiqrasiya problemi yaşamaq.

Belə bir seçimi Ermənistanın yerinə heç kim etməyəcək.

❑ **Siyasət şöbəsi**



# "Rusiyaya qarşı sanksiyalar Krımı qaytarana qədər qüvvədə qalmalıdır"

**"Ukrayna və ABŞ əmindir ki, Rusiyaya qarşı sanksiyalar onun Minsk razılaşmaları ilə bağlı öhdəliklərini yerinə yetirməsinə və Krımın işğalına son qoymasına qədər qüvvədə qalmalıdır".**

APA-nın "112.ua" saytına istinadən verdiyi xəbərə görə, bu sözləri ABŞ-ın vitse-prezidenti Co Bayden Kiyevdə Ukrayna prezidenti Pyotr Poroşenko ilə keçirdiyi birgə brifinqdə deyib. "Avropa İttifaqındakı və "böyük səkkizlik" üzrə tərəfdaşlarımızla birlikdə biz aydın bildirmişik ki, Rusiya tam şəkildə, təkrar edirəm, tam şəkildə Minsk razılaşmalarına dair öhdəliklərini yerinə yetirənə qədər sanksiyalar davam etməlidir. Krımla bağlı sanksiyalar isə Rusiya Krımı Ukraynaya qaytarana qədər qüvvədə qalmalıdır".

**P.Poroşenko bu cür mövqeyə görə ABŞ-a təşəkkür edib:** "Dəqiq və ardıcıl mövqeyə, eləcə də bu yaxınlarda Rusiyaya qarşı sanksiyaların genişləndirilməsi qərarına görə təşəkkürümü ifadə etmək istərdim. Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində (Krım da daxil olmaqla) ərazi bütövlüyü bərpa olunana qədər sanksiyalar qüvvədə qalmalıdır".

C.Bayden qeyd edib ki, Minsk razılaşmalarının siyasi hissəsi (Donbasa status verilməsi, yerli orqanlara seçki keçirilməsi, amnistiya və s.) yalnız Rusiyanın təhlükəsizliklə bağlı öhdəliklərini (Rusiyadan gəlmiş döyüşən qüvvələrin, hərbi texnikanın çıxarılması, Ukraynanın Rusiya ilə sərhədə nəzarətinin bərpa olunması) yerinə yetirməsindən sonra həyata keçirilməlidir: "Rusiya tərəfindən zorakılığa son qoyulmadan sazişin siyasi hissəsinin həyata keçirilməsi mümkün deyil".

C.Bayden Ukraynanı islahatları və Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı davam etdirməyə də çağırıb.

Qeyd edək ki, Obama administrasiyasında Ukrayna ilə əlaqələrə məsul olan Co Bayden Ukraynaya vida səfəri edib.

**Yanvarın əvvəllərində başlayan Kipr müzakirələri yanvarın 18-dək təxirə salınıb. BMT-nin təşkilatçılığı ilə Cenevrə ofisində ekspertlər səviyyəsində başlayan müzakirələr getdikcə daha da mürəkkəbləşir.**

# Kipr məsələsi həllini tapır

## Adanın hər iki tərəfdən olan əhalisi 12 il əvvəlkindən fərqli olaraq həll prosesinə isti yanaşmağa başlayıb

Müzakirələrlə bağlı mətbuata açıqlama verən Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu deyib ki, Türkiyə dövləti və ordusu Şimali Kiprin təminatçısı olaraq qalır.

BMT Cenevrə ofisi açıqlama yayaraq Kiprin türk və yunan tərəflərinin 20 aydır davam edən müzakirələrinin “fövqəladə” uğur əldə etməsinin təqdir olunduğunu bildirib. BMT-nin rəsmi açıqlamasında Kipr müzakirələrinin 6 təməldən biri olan “təhlükəsizlik və təminat” mövzusunun ilk dəfə müzakirələrə çıxarıldığı və eyni zamanda hər iki tərəfin müzakirələrin uğurla yekunlaşdırılması ilə bağlı həmfikir olduğu qeyd olunub.

Yanvarın 18-də mütəxəssislər qrupunun yenidən bir araya gələcəyi və müzakirələrin davam etdiriləcəyi bildirilir. Artıq hər iki tərəf öz xəritəsini təklif edib. Eyni zamanda bildirilib ki, mediaya sızdırılan xəritələr həqiqətə uyğun deyil. “Əl-Cəzirə” kanalının məlumatına görə, danışıqlarda Kipri türk hissəsi əlində olan əraziləri 29,2 faizə qədər azalmasına razılaşdığı halda, yunan Kipri türklərə 28,2 faiz verilməsini istəyir.



Yanvarın 18-də davam edəcək danışıqlarda əsas mövzunun məhz “mülkiyyət”, “idarəçilik və güc bölgüsü”, “təhlükəsizlik” və nəhayət, “Avropa Birliyi” mövzuları müzakirə olunacaq.

Müzakirələr ekspertlər səviyyəsində aparılsa da, danışıqlarda əsas iştirakçı Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Mustafa Akıncı və Yunan Kiprinin prezidenti Nikos Anastasiadisdir. Hər iki lider prosesi nəzarətdə saxlayır.

Qeyd edək ki, Kipr müzakirələrinin qarant ölkələri Türkiyə, Yunanıstan və Britaniyadır. Xatırladaq ki, Kipr probleminin həlli məqsədilə 2005-ci ildə BMT-nin o zamankı baş katibi Kofi Annanın adı ilə adlandırılan “Annan planı” təqdim edilmişdi. Ancaq o zaman sülh planı uğursuzluğa düçar olmuşdu. “Annan planı”nın baş tutmamasının əsas səbəbləri sırasında həm adadakı hakimiyyətlərin və xalqların, həm də himayəçi dövlətlərin yanaşması, ümumilikdə isə bölgədəki durum idi. Necə deyərlər, “yerli şərtlər” uyğun deyildi.

Ancaq sonrakı illərdə vəziyyət dəyişdi, xüsusən də son illərdə həm Yunanıstanda ardıcıl iqtisadi geriləmə və böhranlar, Türkiyənin özündə baş verən hadisələr, Qərb bloku ilə münasibətlərdə soyuqluq və nəhayət, adadakı əhvalın ciddi təsiri var. Məsələ ondadır ki, xüsusən də adadakı hakimiyyətlər və xalq güzəştə hazır deyildi. Ancaq son illərdə həm bölgədə, həm də dünyada baş verənlər Kiprə də təsir etdi. Adanın türk hissəsində sülhə daha yaxın solçu qüvvələr hakimiyyətə gəldilər, üstəlik, bölgədə yaşanan iqtisadi böhranlar hər iki tərəfi də “vurdu”. Bu səbəbdən də indi psixoloji olaraq Kiprin hər iki tərəfi anlaşmaya, birləşib bir dövlət kimi AB-yə üzv olmaya daha çox meyli kimi görünür. Bu səbəbdən də danışıqların növbəti mərhələsi müəyyən mənada ümidli başlayıb. Hər iki tərəfin anlaşacağı bir həll variantı Kiprin hər iki tərəfi üçün böyük imkanlar və iqtisadi, siyasi inkişaf vəd edir. Avropa Birliyinin bir parçası olmaq, ittifaqın verdiyi imkanlardan faydalanmaqda maraqlıdır. Burda daha bir incə məqam isə Türkiyənin Avropa ilə əlaqələrinin soyuqlaşması, Qərblə yaranmış gərginlikdən doğan ümidsizlikdir. Adadakı ictimai-siyasi fəallaıq yunanlarla anlaşmaya meyllənməsinə səbəb olur.

❑ **KƏNAN**

# Suriyada Amerikasız sülh mümkündürmü...

## Vaşinqton razı olmasa, Astana danışıqları ruslar və türklər üçün çətin sınaq olacaq

**Yanvarın 23-də Astanada keçiriləcək Suriya münaqişəsinin həllinə dair danışıqlarda müxaliflər də iştirak edəcək. “Reuters” agentliyinin yaydığı xəbərdə bildirilir ki, bu barədə qərar Ankarada ekspertlər səviyyəsində aparılan müzakirələrdə qərar verilib. Müxaliflərin əsas mövzusu isə atəşkəs və hökumətin atəşkəsi pozması iddiaları olacaq.**



Bundan başqa, müxaliflər Astanada yardımların çatdırılması, həbs olunanların buraxılması kimi məsələləri qaldıracaqlar. “Əl-Cəzirə” kanalı Suriya müxaliflərini Astanada daha əvvəl Cenevrədə müxalifləri təmsil etmiş Məhəmməd Alluşun təmsil edəcəyi haqda xəbər yayıb.

Son məlumatlara görə, artıq Moskva Vaşinqtonun yeni administrasiyasına da Astanada iştirak üçün dəvət göndərib. Ancaq ABŞ-ın yeni fəaliyyətə başlayacaq hökumətinin Astanada üst səviyyədə təmsil olunması gözlənilmir. Ehtimal olunur ki, Moskva gərginliyi yumşaltmaq və ən azından prosesi pozmaması üçün Vaşinqtonu dəvət edib. Yeri gəlmişkən, kürd məsələsinə görə Vaşinqton və Ankara arasında yenidən gərginlik yaranıb. Çünki ötən həftə Dövlət Departamentinin sözçüsü Mark Toner kürdlərin də Astanada iştirakını istədiklərini deyib. Bu isə Ankara üçün qəbulolunmazdır. Mövlud Çavuşoğlu Vaşinqtona digər terror təşkilatlarını da dəvət etməyi tövsiyə edərək kinayəli cavab verib.

Məhz Amerikanın olmadığı sülh prosesinin baş tutması artıq indidən sual altına düşüb. Doğrudur, hazırda Astana danışıqlarının əsas təşkilatçısı olan Moskva və Ankara Suriyada çox güclüdürlər, savaşan qüvvələrin böyük qisminə nəzarət etmək imkanına sahibdirlər. amma Ankaranın nəzarət etdiyi və hətta etmədiyi qüvvələrə Vaşinqtonun təsir imkanları var və hansısa mərhələdə Vaşinqton bu qüvvələrə təsir edərək prosesi poza bilər. Baxmayaraq ki, Astana danışıqları da BMT-nin ABŞ-ın da iştirak etdiyi Cenevrə prosesinin bir hissəsidir.

Bütün bunların fonunda ən maraqlı gəlişmə Suriyada yaşanır. Bazar günü İŞİD qüvvələri ölkənin şərqində, İraq yolunun üzərində yerləşən Deyr əz-Zor şəhərinə hücum ediblər. Bu şəhər münaqişənin başladığı ilk illərdə müharibə meydanına çevriləcək müxtəlif vaxtlarda İŞİD-in əlində olub, ancaq sonradan tamamilə Suriya hökumət qüvvələrinin nəzarəti altına düşüb. İŞİD-in yenidən bu şəhərə hücum etməsi və bir neçə məhəlləni və strateji nöqtəni ələ keçirməsi ilə nəticələnən hücumdan sonra Suriya ordusu yenidən itirilmiş əraziləri geri almaq üçün əməliyyat başladıb.

Ancaq İŞİD-in məhz indi fəallaşaraq Deyr əz-Zora hücum etməsi diqqət çəkir. Məlum olduğu kimi, hazırda İŞİD Mosulda sıxışdırılır və gələn bilgilərə görə, İraq ordusu Mosulda sürətlə irəliləyir. Deməli, Mosulda uduzan İŞİD-in Suriyada fəallaşması onun artıq İraqda məğlubiyyəti ilə barışdığı, bunun əvəzində Suriyada yenidən möhkəmlənmək, bütün gücünü burda cəmləmək istədiyini göstərir. Burda diqqət çəkən daha bir məqam isə odur ki, hazırda İdlib şəhəri və Dəməşqətrafı bölgələrdə Suriyadakı atəşkəs anlaşmasına daxil edilməyən terror təşkilatlarına qarşı əməliyyatlar davam edir. İŞİD-in ordunun zəif nöqtəsi olan Deyr əz-Zora hücum etməsi diqqəti bu şəhərə çəkmək, digər əməliyyatları dayandırmaq məqsədlidir. Çünki istər-istəməz ordu Deyr əz-Zora əlavə qüvvə göndərəcək, bu isə Dəməşq və İdlibdəki əməliyyata təsir edib onları yavaşladacaq. Bu isə terrora təşkilatları arasında koordinasiya olduğu və ya onların bir mərkəzdən yönləndirildiyi iddialarını gücləndirir.

❑ **KƏNAN**

# Kiçik siyasət dükanları və vətəndaş mövqeyi...



**Hüseynbala SƏLİMOV**

**Artıq “müxalifət” sözünü eşidəndə ən ciddi adamların belə dodaqları qaçır və sifətlərinə acı təbəssüm, aşkar sezilən ironiya qonur. Ona görə də bu xüsusda nəsə yazmaq, nəsə demək olduqca çətindir.**

Neçə illərdir ki, müntəzəm olaraq yazan bir yazar kimi sizə deyirəm ki, əgər hər hansı bir yazının oxunmasını istəmirsinizsə onun başlığında ya “Minsk Qrupu” ifadəsini işlədin, ya da ki, “müxalifət” sözünü yazın. Sizi əmin edirəm ki, bu yazı rekord dərəcədə az oxunacaqdır...

Bunun səbəbləri haqda da danışmaq istəmirəm. Bircə onu deyirəm ki, Azərbaycanda hakimiyyəti də, müxalifəti də eyni uğurla uzunömürlülər adlandırmaq olardı...

Hakimiyyət tamam bəlli məsələdir. Burada bəlkə də uzun müddət hakimiyyətdə qalmaqdan deyil, hakimiyyətin tamam uzurpasiyasından danışmaq daha düzgün və məntiqli olardı.

Müxalifətə gəldikdə isə biz də razılaşırıq ki, bu sferada da on illərdir “köhnə hamam, köhnə tas” vəziyyəti hökm sürür...

Günah kimdədir? Hər bir siyasi nəslin bəlli bir dövrü var. Nə vaxtsa bu dövr bitməli və yeni insanlar gəlməlidir siyasətə. Müxalifətdəkilər istəsə belə, bu prosesin qarşısını ala bilməzlər. Daha doğrusu, bunu öz partiya və təşkilatlarında edə bilərlər və edirlər də. Əslində bu da müəyyən mənada onların haqqıdır, ən azı ona görə ki, onların da bu ölkədə kiçik “dükan” sahibi olmaq haqları var. Ona görə “kiçik siyasi dükan” deyirəm ki, indi bizim müxalifət partiyalarını başqa cür adlandırmaq olmur...

Amma bütün ölkə siyasəti heç də müxalifətin nəzarətində deyil. Elə ən ağrılısı-acısı da budur ki, kənarda da bir şey yarana bilmir. Səbəbləri çox sadalamaq olar. Bəli, cəmiyyətimiz siyasi cəhətdən tamamilə “qısırlaşıb” və yeni bir siyasi hərəkat ərsəyə gətirmək üçün potensiyası yoxdur.

Gəl, bütün səbəblərin özlərinin də bir səbəbi olur. Səbəblər səbəbi isə təbii ki, indi ölkədə hökm sürən siyasi münasibətlər və siyasi gerçəkliklərdir. Elə bir hal yaranıb ki, nəinki yeni nəsə yaratmaq mümkün deyil, hətta köhnəni belə saxlamaq olmur...

Bütün bunların isə bircə əsas səbəbi var - cəmiyyətimiz zəif çıxdı və öz taleyi üçün məsuliyyəti üzərinə götürə bilmədi. Uzun illər insanlar “güclü əl”, “güclü şəxsiyyət” axtarışında oldular. Nəticəsi də bu gün baş verənlər oldu. Bu labirintdən çıxmağın isə bircə yolu var - insanlar güclü fərd və cəmiyyət olmağın zəruriliyini anlamalıdırlar...

Anlayacaqlarsa, problem həll olunacaq. Yox, anlamayacaqlarsa, o halda belə vəziyyət on illərlə davam edəcək...

Bizdən, hər bir azərbaycanlıdan nə tələb olunur? Əsas tələb budur ki, heç olmasa, vətəndaş olduğumuzu unutmayaq. Elə ölkədə də geniş bir vətəndaş hərəkatına ehtiyac var.

Demokratiya uzun bir prosesdir. Təbii ki, dövrün və zamanın da müəyyən rolu vardır və biz bəşəriyyətin keçdiyi bu prosesi lap əvvəldən başlayaraq keçməməliyik. İndi elə şeylər var ki, onlar elementar zərurət kimi qəbul olunur. Məsələn, bizə durub konstitusiya, parlament, hakimiyyətin bölünməsi uğrunda savaş açmaq lazım deyil. Onlar formal olaraq var. Sadəcə, bütün bu atributlara bir real məzmun vermək lazımdır-bizdən tələb olunan budur...

Ümumiyyətlə, vətəndaş haqları və hüquqları məsələsi həmişə dövlət yaranandan bir qədər sonra aktuallaşır. Məsələn, ABŞ kimi dövlətdə bu məsələ ötən əsrin 60-cı illərində reallaşdı. Biz isə cəmi 26-cı ildir ki, azad və müstəqil dövlət olmuşuq. Bu aspektdən baxanda hər şey hələ irəlidə, yaxın gələcəkdədir...

Həm də özümüzü elə aparmayaq ki, guya bu vaxta qədər çox iş görmüşük. Hər bir proses, hər bir iş son nəticə ilə ölçülür. Bizim isə bu gün bir nəticəmiz var. O da budur ki, Azərbaycan müstəqil dövlətdir...

Bəli, müstəqildir, suverendir, amma azad və hüquqi deyil. Onun azad və hüquqi olması üçün hələ çox çarpışmalıyıq...

İlk növbədə də başqalarından deyil, özümüzdən ummalıyıq. Siyasi partiyalar, ənənəvi müxalifət nə edir, - bütün bunlar bizi bir o qədər də qayğılandırmamalıdır.

Çalışaq bir suala cavab verək: özümüz nə etmişik? Ölkənin azad və hüquqi olması üçün azacıq da olsa, iş görmüşükmü? İnsan üçün ən çətin məsələ onun özü üçün qurduğu məhkəmədir. Çalışın, bu məhkəmədən keçin...

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017



# Hovuza atılan sentlər və bizim nəzir qutuları

Samir SARI

**O gün gənc blogger Bəxtiyar Hacıyev sosial şəbəkədə bir qeyd paylaşmışdı. Çox maraqlı idi.**

Bilənlər bilir, bilməyənlər də bilsin ki, Bəxtiyar bəy ABŞ-dakı Harvard Universitetində oxuyub və məzun olub ölkəmizə qayıdandan bəri tez-tez xarici ölkələrə gedir - Avropanı diricə gəzib, Cənubi Amerikada, Afrikada, Asiyada olub, getmədiyi bəlkə bir Avstraliya qala, bir də Antarktida-zad.

Əlbəttə, çox gəzən çox bilər. Əslində vaxtında ona ixtisasına uyğun bir dövlət işi versələr bu qədər gəzə bilməzdi, başını aşağı salıb işini görərdi. Amma bu heç.

Bəxtiyar Hacıyev yazmışdı ki, Romadakı Trevi fəvvarəsinə çox adam metal pul atır. Həftədə bu fəvvarədən sentlərlə 25 000 dollar (ayda 100 000 dollar) toplanır və bu işə dövlət özü baxır, hovuzun dibindən toplanan pul Romada kasıb və kimsəsiz ailələrə yardım edilir.

Bloqqer qardaş sözünü belə bitirmişdi ki, bizdəki nəzir qutularından toplananlara isə nəzarət yoxdur və bu pullarla kasıb hacılar özlərinə villalar tikirlər.

Ayda yüz min dollar "hovuz pulu" balaca məbləğ deyil. Bu pulla 200 ailə saxlamaq, ayda bir villa tikdirmək, iki dənə bərkgedən cip almaq olar.

Bu məsələlərə qayıtmazdan əvvəl mövzuyla bağlı öz yaddaşımdan bir yarpaq dərmək istəyirəm.

Vaxtilə mən də hovuza sent atmışam. Bu hadisə Amerikada baş verib. Vaşinqton şəhərinin ortasından keçən Potomak çayının kənarındakı bulvarda yerləşən böyük hovuza mən də, yanımdakı iki başqa adam da pul atdıq.

Bunu bizə ABŞ-da yaşayan və bizi şəhərdə gəzdirən Elxan adlı soydaşımız tövsiyə etdi, dedi ki, əgər istəyirsinizsə, yolunuz bir də Vaşinqtona düşsün, onda bu hovuza xırda pul atın. Bizdə də bir ovuc sent vardı, əndərdik hovuza. Çünki hamımız istəyirdik ki, nə vaxtsa dünyanın paytaxtı olan bu gözəl şəhərə bir də gələk.

Belə bir inanc var ki, olduğun şəhərdə hovuza xırda pul atsan, ora yenidən qayıda bilirsən. Belə görünürdü ki, Vaşinqtonda olan xaricilər bu şəhərə qayıtmağı ürəkdən istəyirlər. Çünki hovuzun dibi sentlərlə dolu idi. Sanasan, hovuzun dibində metal puldan döşəmə var.

Bəlkə də bu pullar həftədə bir dəfə hovuzdan götürülür, ona görə çox idi. Hər halda Vaşinqtondakı hovuzdan yığılan pul da Romadakı Trevi fəvvarəsinin hovuzunda toplanandan az olmaz.

Deyilənə görə, dünyanın iri meqapolislərinin hamısında belə hovuzlar var və turistlər ora ovuc-ovuc xırda pullar tökürlər. Həmin ovuc-ovuc pullar da sonradan toplanır, ətək-ətək kağız pul olur.

Hacıbala müəllimin sözü olmasın, Bakımızda da xeyli fəvvarəli hovuz var və onların tikilib başa gəlməsi ətək-ətək pulların hesabına olub. Amma baxaq, görək, o hovuzun dibində toplam 3 manatlıq qəpik-quruş varmı.

Məncə, yoxdur. Olsa-olsa, bəzi marketlərdə alıcıya qalıq kimi qaytarılan 1, 2 , 5 qəpiklikləri kimsə hirsindən hovuza atır. Onların da gündə bir vedrəsini toplasan, 5 dollar edər, ya etməz.

İndilərdə Mehman Hüseynovun əlindən heç onu da toplamaq mümkün olmaz. Çünki gənc bloqqer hökumətin 200 manatlıq cərimələsinin sikkələrlə ödəmək fikrindədir, şəhərə düşüb qəpik yığır.

Xülas. Əsas məsələ odur ki, ya bizim şəhərimizə gələn turistlər çox xəsisdirlər, gül kimi hovuzlarımıza pul atmaq istəmirlər, ya da onlar ona görə hovuza metal pul atmaq istəmirlər ki, bu şəhərə bir də gəlməsinlər.

Təbii ki, bizdə "hovuza pul atmaq" ənənəsi yoxdur, bizdə "nəzir qutusu" institutu var, o da ki, yaxşı işləyir. Bəzən hətta nəzir qutusuna pul salmaq üçün növbələr də yaranır. Axtarsan, orda da xeyli pul yığılır.

Deyilənə görə, nəzir qutularından həftədə 30, ayda 200 min pul yığılır və bu pulun hamısı kasıb və kimsəsiz ailələrə sərf olunur.

Zarafat edirəm. Elə şey yoxdur. Bura İtaliyadırmı, İslandiyadırmı? Burda nəzirə nəzarət üstə qanlı-bıçaq olanlar var. Bunların dırnağından darı sızmır, deyirsiniz, ianə toplayıb asıb-kusuba verərlər?

**P.S.** *Yeri gəlmişkən, deyəsən, Potomak çayının qırağındakı hovuza atdığım sentlər havayı gedib, o vaxtdan bəri Vaşinqtona yolum düşmür.*

---

**ABŞ-ın yeni prezidenti Donald Trampın inauqurasiya mərasiminə iki sutka qalıb. Yanvarın 20-də Donald Tramp və vitse-prezident Maykl Pens Kapitolidə təntənəli surətdə İncilin üzərinə and içəcəklər. Bundan sonra isə Konqresin binasından Ağ Evə qədər uzanacaq izdihamlı paradda iştirak edəcəklər.**



# Dünya üçün yeni dönəmin başlanmasına 48 saat qaldı

## Trampın inauqurasiyasına 2 milyondan çox adam qatılacaq

İnauqurasiya mərasiminin intriqa yaradan məqamlarından biri tədbirdə dəvət alan siyasətçilərin və məşhurların adı ilə bağlıdır. Məsələ ilə bağlı Tramp şəxsən ötən ilin dekabrında məsələyə münasibət bildirmişdi: "Bütün "A" kateqoriyalı məşhurlar mənim inauqurasiyama dəvət almaq istəyir, lakin baxın, görün onlar Hillari üçün nə etdilər. Heç nə".

Dəvət olunan xarici siyasətçilərin siyahısına gəlincə, ABŞ-dakı protokol qaydalarına əsasən, inauqurasiya mərasiminə xarici ölkə səfirləri dəvət olunur. ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşı Mehdi Hüseynquliyev "Yeni Müsavat"a bildirib ki, Donald Trampın inauqurasiya mərasiminə ABŞ-dakı diplomatik missiya rəhbərləri həyat yoldaşları ilə birlikdə dəvət ediliblər.

Rəsmi dəvət olunanlar siyahısında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, Rusiyanın səfiri Nikolay Laxonin, Ukraynanın səfiri Valeri Çalıy, Avropa ölkələrinin səfirləri və digərləri var. Bundan başqa, inauqurasiya mərasimində Donald Trampın biznes dostları və bir sıra Hollivud ulduzları, o cümlədən "Oskar" laureatı Klint İstvudun iştirakı gözlənilir.

İnauqurasiya mərasimi yanvarın 20-si Bakı vaxtilə saat 13.00-da başlayacaq. Mərasimdə 2-3 milyon arasında insanın iştirakı gözlənilir.

ABŞ-ın keçmiş prezidenti Bill Klinton və xanımı, seçkilərdə D.Trampın demokrat rəqibi olmuş Hillari Klinton da yanvarın 20-də keçiriləcək inauqurasiya mərasiminə qatılacaqlar.

Vaşinqtonda baş tutacaq 58-ci inauqurasiya mərasiminə CNN-in məlumatına görə, xanımı Lora ilə birgə keçmiş prezident Corc Buş da gələcək.

Mərasimə son dərəcə ciddi təhlükəsizlik hazırlıqları da aparıldığı bildirilir. ABŞ-ın xüsusi xidməti və paytaxt polisi hesab edir ki, yeni seçilən prezident Donald Trampın yanvarın 20-də keçiriləcək inauqurasiyası zamanı Vaşinqtonda dünyanın ən çətin əməliyyatlarından biri qeydə alına bilər. "The New York Times"in yazdığına görə, hazırda Tramp tərəfdarları ilə seçkinin nəticələrindən narazı qalanlar arasında mümkün qarşıdurmaların qarşısının alınması üçün ciddi hazırlıq gedir. Xüsusi xidmətin məlumatına görə, həmin gün kütləvi etiraz aksiyası təşkil oluna bilər.

Yanvarın 21-dən isə Donald Tramp ABŞ prezidenti vəzifəsini həyata keçirməyə başlayacaq. Əksər politoloqlar, siyasətçilər Trampın fövqəldövlətə rəhbərlik etməyə başlamasının dünya üçün yeni dönəmin başlaması olacağını bildirirlər. Sələfi Barak Obamanın qəbul etdiyi qərarların 70 faizinin dəyişdiriləcəyi və ya ləğv ediləcəyini bəyan edən D.Trampın prezidentliyinin ABŞ-ı və dünyanı hansı istiqamətə yönəldəcəyi ilə bağlı birmənalı proqnozlar yoxdur. Bəziləri Tramp xarakterində və mövqeyində olan bir şəxsin Amerikaya prezidentliyinin bu ölkənin özü və dünya üçün təlatümlər gətirəcəyini, bir çoxları isə ABŞ-ı və dünyanı bataqlıqdan çıxaracağını, dünyaya sabitlik gətirəcəyini proqnozlaşdırırlar.

Dünya ölkələrinin əksəriyyəti üçün Trampla işləməyin Barak Obama ilə işləməkdən asan olacağı da proqnoz edilir. Eləcə də Azərbaycan hakimiyyəti üçün də yeni prezident Trampla işləmək ən azından Obama administrasiyası ilə işləməkdən daha asan olacaq.

Bu fikirdə olan politoloqlar diqqəti daha çox yeni dövlət katibinin üzərinə cəmləyirlər. Donald Trampın xarici siyasətini "ExxonMobil" neft şirkətinin artıq sabiq sədri Reks Tillerson dövlət katibi olaraq yürüdəcək və təbii ki, onun da Azərbaycanla əlaqəsi olub, ölkəmizdə bir çox insanları şəxsən tanıyır. Bu şəxsi tanışlıq da münasibətlərin qurulmasında müəyyən rol oynayacaq. Trampın özü də Azərbaycanla tanışdır və burada biznes maraqları olub. Prezident seçiləndən sonra da Azərbaycan prezidenti ilə telefonla danışıb. Bu da Azərbaycanın müstəqillik tarixində bir ilkdir.

Ekspertlər qeyd edirlər ki, bütün bunlara rəğmən demək olmaz ki, Tramp və onun iqtidarı bütün məsələlərdə Azərbaycan iqtidarının yanında olacaqlar və heç bir tənqid səsləndirməyəcəklər. ABŞ-da hökumət idarəçiliyi əsrlərin ənənəsinə əsaslanır və hər qurumun öz işi var. Heç kim də onlara fərdi və kollektiv təzyiq göstərmək iqtidarında deyil. Bu baxımdan, ABŞ-ın demokratik təsisatları, o cümlədən ABŞ Dövlət Departamenti əvvəlki qaydada Azərbaycanda monitorinqlərini davam etdirəcək və hesabatlarını açıqlayacaq. Bu hesabatlarda tənqid də olacaq.

Ekspertlərin fikrincə, Trampın seçki kampaniyası dövründə Cənubi Qafqaz və Qarabağ problemi ilə bağlı heç bir fikir işlətməməsi o demək deyil ki, Cənubi Qafqaz, Dağlıq Qarabağ məsələsi ABŞ-ın xarici siyasətində önəmli yer tutmayacaq. İndidən demək olmaz ki, Tramp Cənubi Qafqaza, Dağlıq Qarabağ məsələsinə diqqət ayırmayacaq. Nəzərə almaq lazımdır ki, geosiyasi məsələlər təkcə prezidentin müəyyənləşdirdiyi məsələlər deyil. ABŞ bir şəxsin iradəsi ilə idarə olunan dövlət deyil. Trampın dövründə də ABŞ Cənubi Qafqazda, o cümlədən Dağlıq Qarabağ məsələsində öz maraqlarını həyata keçirməyə çalışacaq. Əgər Trampın rəhbərlik edəcəyi ABŞ-ın xarici siyasətində bütün dünya gücləri, eyni zamanda Rusiya ilə uzlaşma siyasəti yürüdüləcəksə, təbii ki, bunun Azərbaycana da, xüsusilə Dağlıq Qarabağ məsələsinə də təsiri olacaq. Dağlıq Qarabağ probleminin həlli yalnız qlobal regional münaqişələr kontekstində mümkün olacaq. Bu məsələyə Suriya və Ukrayna problemi kontekstində baxılmalıdır. Gələcəkdə Suriya məsələsində Tramp Kremllə anlaşacaqsa, bu, uzlaşmanın Ukraynaya, ardınca isə Dağlıq Qarabağ məsələsinə də təsiri olacaq. Ona görə də məsələlərə kompleks şəkildə yanaşılmalıdır. ABŞ-la Rusiyanın anlaşması olmalıdır ki, regiondakı münaqişələr həllini tapsın. Bu olmadan nə Suriyada, nə Krımda, nə Dağlıq Qarabağda münaqişənin həllini görməyəcəyik.

**Trampın erməni lobbisi ilə əlaqəsinin olmaması faktının Azərbaycanın da xeyrinə olduğu bildirilir.**

❑ Etibar SEYİDAĞA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağda minomyot müharibəsi: düşmən mərmi yağdırdı, cavabını aldı

**Azərbaycanın Müdafiə Nazirliyindən xəbərdarlıq:** "Cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca Qarabağ cəbhəsində də gərginliyin artacağı ilə barədə ehtimallar özünü doğrultmaqdadır. Ötən ilin sonlarında Serj Sərkisyan hakimiyyətinə güzəştli sülhlə bağlı təkliflər verən müxalifət lideri, sabiq prezident Levon Ter-Petrosyanın dediklərinin əksinə olaraq, İrəvan cəbhədəki durumu günbəgün ağırlaşdırmaq siyasəti yürütməkdədir.**

Azərbaycanın Müdafiə Nazirliyi yanvarın 15-i axşamdan etibarən vəziyyətin gərginləşdiyi barədə məlumat yayıb. Məlumata görə, Ermənistan tərəfi cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə iriçaplı ağır silahlar tətbiq edib. Bazar günü axşam saatlarından başlayaraq gecəyədək erməni silahlı bölmələri 60, 82 və 120 millimetrlik minaatanlardan da istifadə etməklə cəbhənin Tərtər-Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar. Məlumatda deyilir ki, hərbi qulluqçularımız arasında itki yoxdur. Nazirlik xəbər verir ki, düşmən tərəfinin aktivliyinin qarşısının alınması məqsədilə Azərbaycan Silahlı Qüvvələri adekvat cavab tədbirləri həyata keçirərək onu susdurub. Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Hazırda cəbhəboyu zonada əməliyyat şəraitinə bölmələrimiz tam nəzarət edir və atəş xəttində üstünlük qoşunlarımızın tərəfindədir.

Qeyd edək ki, bundan əvvəl Qarabağ cəbhəsində ermənilər tərəfindən mövqelərimizin atəşə tutulmasına qarşı cavab tədbirləri görülərkən düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu 1980-ci il təvəllüdlü Bəşirov Fikrət Nurşiravan oğlu şəhid olub. Ötən ilin 29 dekabrında erməni diversiya qrupunun qarşısını alarkən həlak olan əsgərimiz Qurbanov Çingiz Salman oğlunun meyiti isə hələ də düşmən əlindədir və İrəvan çağırışlara məhəl qoymayaraq hərbçimizin nəşini qaytarmaqdan imtina edir.

*****

İşğalçı ölkənin azğın davranışları isə hər an dəhşətli müharibənin başlaya biləcəyini deməyə əsas yaradır. Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərovun sözlərinə görə, cəbhə xəttində aprel döyüşlərindən də genişmiqyaslı döyüşlər başlaya bilər (unikal.org). Artıq heç kim şübhə etmir ki, Qarabağ cəbhəsində və Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən toqquşmalar Serj Sərkisyanın ssenarisinə uyğun olaraq reallaşdırılır və birmənalı şəkildə düşmənin təxribatıdır. Ermənistan prezidenti bu yolla bir neçə hədəfə çatmaq istəyir. Gərginliyin artması Sərkisyana opponentlərinin güzəştli sülh barədə iddialarına ən tutarlı cavabdır. Baş verənləri əsas gətirən S.Sərkisyan Azərbaycanla sülhə gəlməyin "mümkünsüzlüyünü" iddia edəcək və gərginliyə görə şübhəsiz ki, birmənalı şəkildə Bakını günahlandıracaq.

Digər tərəfdən, erməni prezident apreldə keçiriləcək parlament seçkilərində hakim partiyanın qalib gəlməsi üçün arqumentlərini gücləndirmək niyyətindədir. Cəbhədəki gərginlik Sərkisyana seçkilərə diqqəti azaltmaq, saxtakarlıq yolu ilə istədiyi nəticəyə nail olmaq fürsəti də yaradır. Elə parlament seçkilərinin aprel döyüşlərinin ildönümünün tamam olduğu günə təyin olunması da buna xidmət edir. Ermənistan rəhbərliyinin məkrli planları barədə artıq ermənilər özləri də danışmağa başlayıb. Ölkədəki fəlakətli vəziyyətin baiskarının S.Sərkisyan iqtidarı olduğunu nəinki xaricdəki ermənilər, həm də ölkədəki ekspertlər də dilə gətirir.

**"20 il bizə yalan danışdılar ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub. Yalnız vaxtı uzatmaq qalır". Bunu erməni politoloq Aqasi Yenokyan deyib (publika.az). Onun sözlərinə görə, 2016-cı il ermənilərə Dağlıq Qarabağ münaqişəsinin həll edilmədiyini xatırlatdı:** "Əvvəl biz yaşayırdıq, işləyirdik və 20 il boyunca dövlətin o fərziyyəsinə inanırdıq ki, münaqişə həll edilib, sadəcə, vaxtı uzatmaq lazımdır. Aprel müharibəsi isə göstərdi ki, illər boyu bizə yalan danışıblar və hər şey deyildiyi kimi deyil. Belə çıxır ki, bizim gözlərimizi açdığı üçün düşmən hesab etdiyimiz Azərbaycana minnətdar olmalıyıq". **Erməni politoloq qeyd edib ki, Ermənistan münaqişənin həlli üzrə hərəkət etmir.** "Aprel müharibəsindən sonra Qarabağ münaqişəsinin nizama salınmasında iki mərhələ baş verdi. Birinci mərhələdə Ermənistan münaqişənin həll olunması məsələsinə razılaşdı. İkinci mərhələdə isə Azərbaycan təmasları artırmaq istiqamətində işlədi, lakin Ermənistan görüşlərdən çəkindi. Hərbi paradda hakimiyyət "İsgəndər"ləri nümayiş etdirərək, bizi əmin etməyə çalışdı ki, Azərbaycandan üstünük. Lakin reallıq fərqlidir. Həmçinin ərazilərin qaytarılması məsələsi gündəmə gəldi. 2017-ci ildə Ermənistanda seçkilər gözlənilir və güman ki, ərazilərin qaytarılması, münaqişənin həlli məsələsi əsas müzakirələrdən biri olacaq. Bütün bunlara baxmayaraq, bizim münaqişənin həlli istiqamətində hərəkət etmədiyimiz dəqiqdir", - o bildirib.

Hələ ki Sərkisyan cəbhədəki gərginlikləri, qarşıdakı itkiləri məzuniyyətdən izləyir. Qarabağ dalğası ilə hakimiyyəti qəsb edən cani prezident hakimiyyətinin ömrünü uzatmaq üçün mümkün variantlardan istifadə edəcək. Hətta 1 mart olayında olduğu kimi, İrəvan küçələrində ermənilərin qanı axsa da...

# Tramp dövrü Qarabağa nə vəd edir - bədbin proqnozlar

**Politoloq:** "Qərbin münaqişənin həllinə təsir imkanları minimuma enib, Rusiya əsas vasitəçiyə çevrilib"

**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp yanvarın 20-də and içəcək və rəsmi şəkildə səlahiyyətlərinin icrasına başlayacaq. Ağ Evin yeni sahibinin Qarabağ münaqişəsinin həllində hansı rolu oynayacağı təbii olaraq əraziləri 25 ildən artıqdır işğal altında olan ölkənin vətəndaşları kimi bizi daha çox maraqlandırır.**

ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın bu münaqişə ocağının söndürülməsində əhəmiyyətli rolu ola bilər. Ancaq ötən illərin acı təcrübəsi göstərdi ki, dünyanın supergücü Cənubi Qafqazdakı münaqişələrin aradan qaldırılmasını özünün prioriteti hesab etmir və Rusiyanın aparıcı rol oynaması ilə razılaşıb. Təbii ki, Tramp administrasiyasının Rusiya ilə münasibətlərə yeni düzən gətirib-gətirməyəcəyindən də çox şey asılıdır. Düzdür, Vaşinqton Moskva ilə ixtilaflarının olduğu dönəmlərdə də şimal qonşumuzla Qarabağ məsələsində eyni mövqedən çıxış etməyə üstünlük verib. Bu mənada perspektiv haqda proqnoz söyləmək asan deyil.

Rusiya prezidenti V.Putinin mətbuat katibi Dmitriy Peskov da bu arada deyib ki, iki ölkə prezidenti arasında görüşün keçirilməsi barədə hələlik hər hansı danışıq aparılmır. Bu, həm də o deməkdir ki, Qarabağda hər an baş verə biləcək dəhşətli müharibəni önləmək üçün də tərəflərin ciddi istəyi yoxdur. Bugünlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycan əsgərinin meyitinin qaytarılmaması faktına toxunarkən loyal münasibət sərgiləndi. Belə ki, diplomat "bu faciəvi insident Azərbaycanla Ermənistan arasında baş verib. Hesab edirik ki, iki ölkə özündə müdriklik, güc və diplomatik imkan tapıb, bu problemi həll etməlidir"-deməklə kifayətləndi. Üstəlik, "problemin açarı hər iki tərəfin əlindədir" - söylədi. Belə olan situasiyada okeanın o tərəfindən də ciddi təşəbbüsün olacağını gözləmək az inandırıcıdır. Üstəlik, səslənən proqnozlar da ümidli olmağa əsas vermir. Azərbaycanlı ekspertlər də bu mənada nikbin deyillər.




**Politoloq Elxan Şinoğlu da Donald Trampın xarici siyasətində Cənubi Qafqaz bölgəsinin arxa planda olacağını düşünür:** "Hətta illərdir Vaşinqton üçün aktual olan Ukrayna mövzusunun da Tramp dövründə ön planda olmayacağını zənn edirəm. Tramp Barak Obamadan fərqli olaraq Kiyevə gərəkən dəstəyi verməyəcək, hər 3 aydan bir vitse-prezidentini Ukraynaya göndərməyəcək. Bu sözləri Ağ Ev sahibinin Cənubi Qafqaz siyasətinə də şamil etmək mümkündür. Vaşinqtonun illərdir Cənubi Qafqazdakı əsas tərəfdaşı Gürcüstandır. Ancaq Tiflislə münasibətlər belə Tramp administrasiyası ciddi önəm kəsb etməyəcək. Əlbəttə, amerikalı rəsmilər və yüksək rütbəli diplomatlar həm Kiyevə, həm də Tiflisə səfərlər edəcəklər, ancaq bu səfərlərin konkret nəticələrinin olacağını zənn etmirəm. Tramp rusiyalı məsləkdaşı Vladimir Putinlə dostlaşıb Rusiya ilə birgə beynəlxalq terrorçulara qarşı mübarizə aparmaq istəyir. Bu - Putinin də arzusudur. Bunun qarşılığında Tramp administrasiyası Rusiyanın "yaxın xaric" adlandırdığı ərazidə fəal olmaya da bilər".

**E.Şahinoğlu qeyd etdi ki, Putin-Tramp yaxınlaşmasının Azərbaycana nə müsbət, nə də mənfi təsiri var:** "Onsuz da Barak Obama administrasiyası da Cənubi Qafqazda fəal deyildi, Rusiyanın bu bölgədə fəallığından narahatlıq keçirmirdi. Obama administrasiyası Qarabağ münaqişəsinin həllinə də maraq göstərmirdi. Bu 8 ildə Vaşinqton xüsusi təşəbbüslə çıxış etmədi. Tramp administrasiyasının Dağlıq Qarabağ münaqişəsinin həllində fərqli siyasət həyata keçirəcəyini düşünmürəm. Ümumiyyətlə, Qarabağ probleminin ATƏT-in həmsədrlər müstəvisində həlli dalana dirənib. Başqa təşəbbüslərə ehtiyac var".

**Əgər dünyanın aparıcı dövləti məsələyə diqqət göstərməyəcəksə, deməli, müharibə riski daha çox olacaq. Mümkündürmü Tramp Qarabağı Rusiyaya tapşırsın?**

**E.Şahinoğlu:** "ABŞ və Fransanın Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir imkanları minimuma enib, Rusiya əsas vasitəçiyə çevrilib. Bunu Vaşinqton da anlayır. Məhz Moskva İrəvan və Bakıya təsir edə bilər. Apreldəki döyüşlərə ara verilməsində də başlıca rol Kremlə məxsus idi. Ona görə də bölgəyə sülhü də Rusiya gətirə bilər. Ancaq Kremlin hələ ki belə bir istəyinin olduğunu zənn etmirəm. Təşəbbüsü özümüzün ələ almağımızdan başqa alternativ qalmayıb. İşğalçıya təzyiqi elə artırmalıyıq ki, Rusiya Ermənistana təsir edib İrəvana "mərhələli həll" planını qəbul etdirsin".

Yeri gəlmişkən, bu günlərdə amerikalı politoloq Maykl Bom virtualaz.org-a açıqlamasında "Trampın prezidentliyi dövründə ABŞ-ın Qarabağ münaqişəsinin həllində iştirakı minimuma endiriləcək" demişdi. Onun sözlərinə görə, Ermənistan-Azərbaycan qarşıdurması da daxil olmaqla, postsovet məkanında münaqişələrin siyasi yollarla tənzimlənməsi ABŞ-ın seçilmiş prezidentinin xarici siyasət maraqlarının əsas blokuna daxil deyil.

**Hər halda, nikbinlik üçün hələlik hər hansı əsasımız yoxdur.**


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017

# "Dağlıq Qarabağ Respublikası"nın komandası KVN festivalından uzaqlaşdırıldı

**Azərbaycan XİN-in ardınca Gənclər və İdman Nazirliyi də "Şən və Hazırcavablar klubları"nın (KVN) Rusiyanın Soçi şəhərində baş tutan 28-ci beynəlxalq festivalına Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağdakı separatçı rejimin komandalarının qatılması ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, nazir Azad Rəhimov tərəfindən KVN Beynəlxalq İttifaqının prezidenti Aleksandr Maslyukova məktub göndərilib və festivalın təşkilat komitəsi ilə danışıqlar aparılıb:**

"Qoyulan əsas tələbin isə ya o komandaların orada Xankəndi adı altında Azərbaycanı təmsil edərək iştirak etmələri, ya da həmin komandaların yarışmadan ayrılmaları idi. Bununla yanaşı, bu mövzu ilə əlaqədar olaraq Xarici İşlər Nazirliyi tərəfindən bəyanat verilib, Rusiya XİN-ə nota göndərilib".

**Bəyanatda qeyd edilir ki, təxribat yaratmağa çalışan erməni komandası 2-ci tura keçməyib:** "Ermənistan yarışın seçmə mərhələsinə ümumilikdə 5 komanda ilə qatılıb. Bu komandalardan 2-si Xankəndini, 2-si Ermənistanı, 1-i isə "Ermənistan yığması" adı altında Moskvanı təmsil edib.

Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejim adından fəaliyyət göstərən "S xlebom i solğö" və "DeleYaman" komandalarının iştirakı yalnız 500 komandanın qatıldığı və 10-14 yanvar tarixlərində aparılan seçmə mərhələsi ilə məhdudlaşmışdır. Ermənistanın 28-ci Beynəlxalq KVN festivalını Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimi təbliğat meydanına çevirmək kimi çirkin niyyəti və planı baş tutmamışdır. Ermənistan tərəfi bu uğursuzluğa bəraət qazandırmaq üçün seçmə mərhələsində 500 komanda arasında 2-3 dəqiqəlik "razminka"nı iştirak kimi təqdim etməyə çalışır. Qeyd edək ki, Ermənistan 2-ci tura yalnız Moskvada olan "Ermənistan yığması" ilə keçə bilib. Ümumilikdə 2-ci mərhələyə 81 komanda vəsiqə qazanıb ki, onların arasında Azərbaycan təmsilçiləri də var".

**"Planet Parni iz Baku" KVN teatrının bədii rəhbəri və rejissoru, əməkdar artist Tahir İmanov "Yeni Müsavat"a danışaraq məsələyə öz münasibətini bildirib. Əməkdar artist qeyd edib ki, məhz onun verdiyi açıqlamalardan sonra Azərbaycanın dövlət strukturları öz etiraz bəyanatlarını yaymağa başlayıb:** "Festivalda Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağdakı separatçı rejimin komandalarının qatılması ilə bağlı mən dəfələrlə etirazlarımı bildirdim. Bildiyimə görə, artıq qondarma "Dağlıq Qarabağ Respublikası"nın komandası festivaldan çıxarılıb. Mətbuatı izləyən adam belə qərara gələ bilər ki, Azərbaycanın birbaşa dövlət strukturlarının iştirakı, XİN və Gənclər İdman Nazirliyinin müdaxiləsi ilə bu baş tutdu.

## Tahir İmanov: "Mənim bəyanatlarımdan sonra nazirlik öz fikrini dəyişdi"


Tahir İmanov

Bu iş baş verəndə ilk gün yenə də mən danışırdım. Hamı susurdu, Tahir İmanov danışırdı. Eynilə Soso Pavliaşvili məsələsi gündəmdə olanda ancaq Tahir İmanov danışırdı. Hamı gözləyirdi ki, kimsə bir rəy, fikir bildirsin. Sonra ikinci dəfə nəsə etsin. Hadisələrin gedişatına fikir versəz görərsiz ki, Gənclər və İdman Nazirliyi ilk gün dedi ki, "bunun bizə aidiyyəti yoxdur", "bizim xəbərimiz yoxdur" və sairə. Necə yəni aidiyyəti yoxdur? Bizim komandanı axı birbaşa siz maliyyələşdirirsiz, onların biletləri, orda qalması və sairə məsələləri axı siz həll edirsiz? Mənim danışığımdan sonra onlar öz fikirlərini dəyişdi və birbaşa nazir tərəfindən KVN Beynəlxalq İttifaqının prezidenti Aleksandr Maslyukova rəsmi məktub göndərildi. Üç gündən sonra XİN bəyanat yaydı və ardınca Moskvadakı diaspor təşkilatımız bəyanat yaydılar. Halbuki bunların hamısını birinci gün etmək olardı. Mən belə düşünürəm. Mən danışanda bəzi televiziya rəhbərləri, bizi gözü götürməyənlər orda-burda bildirirlər ki, Tahir İmanov çətin adamdır, onunla danışmaq olmur və sairə. Tahir İmanov belə vəziyyətdə neyləməliydi, susmalıydı?! Deməliydi ki, gəlin gözləyək görək yuxarıdan nə göstəriş olacaq, sonra öz sözümüzü deyək?"

❑ Xalidə GƏRAY



# Azərbaycanla Dünya Bankı arasında TANAP-a kredit ayrılmasına dair müqavilə imzalandı

## 400 milyon ABŞ dolları məbləğində olan kredit sazişi nəyi ehtiva edir?

**16 yanvar 2017-il tarixində Azərbaycan Respublikası hökuməti, Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyəti (CQD) və Dünya Bankı arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) layihəsinin dəstəklənməsi məqsədilə kredit ayrılmasına dair müqavilə imzalanıb.**




400 milyon ABŞ dolları məbləğində olan kredit sazişini CQD-nin baş direktoru Əfqan İsayev və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mercy Tembon, kredit müqaviləsnə dair zəmanət sazişi isə Azərbaycan Hökuməti adından maliyyə naziri Samir Şərifov və xanım Mercy Tembon arasında bağlanıb.

Maliyyə naziri Samir Şərifov imzalanma mərasimində bildirib ki, beynəlxalq maliyyə qurumları ard-arda Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi üçün dəstək verir və bu, dünya miqyasında Azərbaycana, onun liderliyi və təşəbbüskarlığı ilə reallaşdırılan Cənub Qaz Dəhlizi layihəsinə inam və etibarının bariz nümunəsidir. Nazir xatırladıb ki, Dünya Bankından başqa, Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı tərəfindən də müvafiq maliyyə dəstəkləri təsdiqlənib: **"Prezident İlham Əliyev layihənin təkcə Azərbaycan üçün deyil, Avropa və regionun enerji təhlükəsizliyi üçün xüsusi önəm daşıdığını vurğulayıb. Bu layihənin reallaşdırılmasında aparıcı qüvvə məhz Azərbaycan Respublikasıdır".**

Nazir Cənub Qaz Dəhlizi layihəsinin iqtisadi və kommersiya cəhətdən də çox səmərəli olduğunu qeyd edərək bu istiqamətdə bir sıra investorlarla da iş aparıldığını xatırladıb: **"Dünya Bankından və digər mənbələrdən cəlb olunan kreditlər gələcəkdə bu layihədən əldə ediləcək gəlirlər hesabına Cənub Qaz Dəhlizi Şirkəti tərəfindən ödəniləcək. Buna baxmayaraq, layihənin tezliklə icra olunmasını nəzərə alaraq hökumət tərəfindən kredit sazişinə zəmanət verilir".**

Dünya Bankının regional direktoru Mercy Tembon isə Dünya Bankı və Azərbaycanın heyətlərinin aylar ərzində apardıqları gərgin işinin nəticəsi olaraq TANAP üzrə hüquqi sazişlərin imzalamasından məmnunluqlarını ifadə edib: **"Biz əminik ki, bu layihə ölkənin regional ticarətdə rolunu və rəqabət qabiliyyətini gücləndirmək və ixracını genişləndirməklə Azərbaycan xalqına çoxlu fayda gətirəcək".** Xanım Tembon bu əməkdaşlığın onlarda böyük ruh yüksəkliyi yaratdığını qeyd edərək, etibarlı tərəfdaş kimi Azərbaycanla bundan sonra da əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını ifadə edib.

Cənub Qaz Dəhlizi layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz Qaz Boru Kəməri və yeni tikiləcək TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropa ixracını təmin etməkdir. Layihədə iştirak edən bütün ölkələr üçün Cənub Qaz Dəhlizinin vacibliyini nəzərə alaraq, bir sıra beynəlxalq maliyyə institutları, o cümlədən Dünya Bankı ilə birgə maliyyələşdirən Asiya İnfrastruktur İnvestisiya Bankı bu layihəni dəstəkləyir.

Qeyd edək ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Respublikası Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 25 fevral 2014-cü il tarixli, 287 nömrəli Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51%-i dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49%-i isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

# Azərbaycandan kənarda terrorçuluq fəaliyyətinə qatılan 58 nəfər vətəndaşlıqdan çıxarılıb

**"Son beş il ərzində 68.270 nəfərin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müəyyənləşdirilib".**

Dövlət Miqrasiya Xidmətindən APA-ya verilən məlumata görə, bunu Dövlət Miqrasiya Xidmətində 2016-cı ilin yekunlarına həsr olunmuş xidməti müşavirədə xidmətin rəisi Firudin Nəbiyev hesabat məruzəsində bildirib.

Azərbaycanın hüdudlarından kənarda 58 nəfərin dini ekstremizm və terrorçuluq fəaliyyətində iştirak etmələri barədə hüquq-mühafizə orqanlarından daxil olmuş materiallar əsasında Dövlət Miqrasiya Xidməti tərəfindən həmin şəxslərin Azərbaycan vətəndaşlığını itirməsi ilə bağlı icraata başlanılıb, aidiyyəti sənədlər məhkəmələrə təqdim olunub və məhkəmələr tərəfindən artıq müvafiq qərarlar qəbul edilib. Xidmət rəisi xüsusi vurğulayıb ki, görülən tədbirlər ölkənin təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyindən bu sahədə aparılan işlər daim ciddi nəzarətdə saxlanılmalıdır.

2016-cı ildə 7.956 ikili vətəndaşlığı olan şəxs müəyyənləşdirilib, onların adları müvafiq bazaya daxil edilib və hazırda statistikası aparılmaqdadır. Hesabat dövründə qaçqın statusu almaq niyyətində olan 95 əcnəbi (ailə üzvləri ilə birlikdə 209 nəfər) Dövlət Miqrasiya Xidmətinə müraciət edib. Hazırda üçüncü ölkə vətəndaşlarından qaçqın statusu almış 73 nəfər Dövlət Miqrasiya Xidmətində qeydiyyatdadır. Avropa İttifaqı ilə imzalanmış readmissiya sazişi çərçivəsində 2016-cı ildə Dövlət Miqrasiya Xidmətinə göndərilmiş bildirişlər əsasında Azərbaycan vətəndaşlığına mənsub olduğu müəyyənləşdirilmiş 120 şəxsin readmissiyası həyata keçirilib.

# Çeçenistanda İŞİD-lə əlaqəli olduqları bildirilən 60 nəfər saxlanılıb

**Çeçenistanda keçirilən xüsusi əməliyyat nəticəsində İŞİD terror qruplaşması ilə əlaqəli olduqları bildirilən 60 nəfər saxlanılıb.**

APA-nın "İnterfaks"a istinadən verdiyi məlumata görə, xüsusi əməliyyat nəticəsində 4 silahlı öldürülüb. Şimali Qafqaz federal dairəsinin hüquq-mühafizə orqanlarından bildirilib ki, İŞİD-lə sıx əlaqədə olan şəbəkəni tam ifşa etmək mümkün olub.

Çeçenistan prezidenti Ramzan Kadırov əməliyyatla bağlı ölkənin 8 yaşayış məntəqəsində kütləvi həbslərin aparıldığını və silahlıların ağır cinayətlər hazırladığını deyib.

**Barak Obamanın öz postunu təhvil verməsinə sayılı günlər qalır. Dünyanın ən çox müzakirə etdiyi mövzu heç şübhəsiz ki, onun prezidentlikdən sonra hansı işlə məşğul olacağıdır. Uzun illər davam edən prezidentlik dönəmi, lüks yaşam, tədbirlər, dəvətlərE Və birdən-birə təqaüdçü kimi bir küncə çəkilib, həyata davam etmək. Heç də asan keçid sayılmaz.**

# Obama bir neçə həftə yatacaq, bəs başqaları?

## ABŞ-ın eks-prezidentinin gələcək fəaliyyəti ilə bağlı ilginc planları; eks-prezidentlər həyatlarına ya xeyriyyəçilik, ya siyasət, ya da elmlə davam edirlər

Hazırda dünya mediasında bu mövzu müzakirə olunur. Daha çox Obamanın timsalında keçmiş prezidentlərin hazırda harda olması, nə ilə məşğul olması ilə bağlı dosyelər hazırlanır. “Yeni Müsavat” da mövzunun aktuallığını nəzərə alaraq, dünya mətbuatındakı məqalələrindən seçmələr edərək, ortaya aşağıdakı dosyeni çıxarıb.

**Qəzetlər yazır - Obama Silikon vadisində çalışacaq...**

Öncə Barak Obamanın yaxın gələcəyi barədə. “The New York Times” yazır ki, Obama öz gələcəyini Silikon vadisi ilə bağlaya bilər. Qəzetin yazdığına görə, Barak Obama fondunun əməkdaşları ötən il Silikon vadisinə 10-dan çox səfər ediblər. Səfərlərin məqsədi hazırkı prezidentə növbəti addımlarını planlaşdırmaqda kömək etmək olub.

“Silikon vadisi onun prezidentlikdən sonrakı fəaliyyətinin əsas sahələrindən biri olsa, mən təəccüblənmərəm”, deyə AOL media konqlomeratının yaradıcısı Steve Case bildirib. Ağ Evdən Silokon vadisinə yol yeni deyil. “The New York Times” xatırladır ki, prezident administrasiyasının bir əməkdaşı artıq bu yolu keçib. Belə ki, 2008-ci ildə Obamanın seçki kampaniyasının “memarı” Devid Plouf hazırda “Uber”də çalışır. Prezidentin keçmiş mətbuat katibi Cey Karney isə “Amazon”un əməkdaşıdır.

Bu, hamısı deyil. Ağ Evin strategiya və kommunikasiyalar üzrə keçmiş müşaviri Den Pfayfer hazırda “GoFundMe” kraudfandinq platformasında işləyir. Obamaın ətraf mühitin mühafizəsi agentliyinin rəhbəri olmuş Liza Kakson isə indi “Apple”ın top meneceridir. Bill Klinton administrasiyasının əməkdaşı olmuş Chris Lehane isə ötən il “Airbnb”də işə düzəlib.

“Bura siyasət veteranları üçün qocalar evinə çevrilir” - Klintonun keçmiş mətbuat katibi Met MakKenna Silikon vadisi haqqında deyir. McKennanın özü keçən il “Uber”də işləməyə başlayıb. Bu ilsə o, “Greenbrier” adlı PR şirkətinin həmtəsisçisi olub. Bu şirkət Silikon vadisinin düz mərkəzində yerləşir.

Ancaq Silikon vadisindən də Obama administrasiyasına gəlmiş adamlar var. Keçmiş Google rəsmisi Meqan Smit hazırda ABŞ-ın baş texnologiya direktorudur. Qəzetin yazdığına görə, Ağ Ev prezidentin yanvardan sonrakı planları barədə şərh verməkdən imtina edib. Ancaq Obamanın elm və texnologiya siyasəti üzrə müşavirlərindən biri olmuş Fil Larson deyir ki, Obamanın texnologiyaya böyük marağı var.

Qəzet eyni zamanda yazıb ki, Obamanın ələltıları ABŞ prezidentinə öz gələcəyini planlaşdırmağa kömək etmək üçün ötən il ərzində təxminən on dəfə Kaliforniyada yüksək texnologiyaların inkişaf mərkəzlərində olublar. “Obama dövlət başçısı postundan gedəndən sonra əgər yeni texnologiyalar layihələrinə diqqət yetirsə, mən təəccüblənməyəcəm” - deyə, qəzetə AOL şirkətinin həmtəsisçisi Stiv Keys bildirib.

“The New York Times” qeyd edir ki, Amerika prezidentinin bir sıra tərəfdarları, belə, “GoFundMe Uber”, “Amazon” və “Apple” kimi iri şirkətlərdə işləyir, bundan başqa, Obamanın kosmik sahəyə olan marağını xatırladır ki, onun gələcək karyerasının daha bir istiqaməti ola bilər. Əvvəllər o, 2030-cu ildə Marsa ekspedisiyanın təşkilatında hökumətin və biznesin əməkdaşlığı barədə çıxış etmişdi.

**Obama isə bir neçə həftə yatmağı planlaşdırır**

Amma Barak Obama hələlik bu mövzuda zarafat xaricində heç nə deməyib. Məsələn, o, zarafatla deyib ki, səlahiyyət müddəti bitdikdən sonra “Uber” taksi xidmətində sürücü işləyəcək. Obama jurnalistin “siz öz bloqunuzu idarə etməyi planlaşdırmırsınız ki” sualına cavab olaraq zarafatla “Uber”də işləməyə gedəcəyini bildirib.

Amerika prezidenti öz zarafatını daha ciddi cavabla davam etdirib: **“Bilirsiniz, mən bir neçə həftə yatmağı planlaşdırıram. Ciddi desəm, biz əlverişli şəraiti olmayan gənclər üçün imkanların yaradılması üzrində işləri davam etdirəcəyik”.**

**Ekslərin əsas xətti - xeyriyyə fəaliyyəti**

Amma bu günə qədər ABŞ-ın eks prezidentləri də maraqlı həyat yolu keçiblər. Onların hər biri digərindən fərqli məşğuliyyətlə yenidən dünyada öz sözünü deyib. Başlayaq Amerikanın 38-ci prezidenti Cerald Forddan. Ford Ağ Evi tərk edəndə 63 yaşı olub. Bundan sonra o, Respublikaçılar Partiyasında öz siyasi fəaliyyətini davam etdirib. Ford eyni zamanda qolfla məşğul olub. O, 2000-ci ildə keçmiş rəqibi Karterlə birlikdə mövcud seçki sistemini tənqid etməsi ilə yadda qalıb.

**Cimmi Karter** - 1980-ci ildə Ronald Reyqana uduzsa da, son 20 ildə o, özünü amerikalıların gözündə reabilitasiya etməyi bacarıb. Bəzi siyasi analitiklər isə deyirlər ki, çox güman, cəmiyyətə Karteri anlamaq və qiymətləndirmək üçün daha çox vaxt lazım idi. Onun Yaxın Şərqdəki böhranla bağlı fikirlərini hələ də dinləyirlər. Eks-prezident ABŞ-da seçki sisteminin dəyişdirilməsi ilə bağlı apardığı kampaniya ilə də məşhur olub. Bundan başqa, o, Corciya ştatındakı məktəblərdən birində dərs deyib. Klinton administrasiyası zamanı Karter planetin qaynar nöqtələrində Ağ Evin müstəqil səfiri funksiyasını icra edirdi. Onun missiyası olduqca faydalı idi. Evdə, Amerikada isə o, ədalətli seçki kampaniyasının müdafiəsi ilə yanaşı, xeyriyyə fəaliyyəti ilə məşğul olurdu. Klinton kimi Karter də olduqca cavan eks-prezident idi. O, Ağ Evi tərk edəndə 56 yaşı var idi.

**Ronald Reyqan.** Keçmiş aktyor və qubernator kimi Amerika tarixinin ən yaşlı prezidenti olub. O, özünün 78 yaşını prezident seçkilərində qalib gələndən bir ay sonra Ağ Evdə keçirmişdi. Ola bilər ki, xəstəliyi və özünü yaxşı hiss etməməsi ucbatından Reyqanın prezident vəzifəsindən getməsi faciəvi görünmür. Yaddaşsızlıq xəstəliyinin əlamətləri artıq özünü 1992-ci ildə göstərməyə başlamışdı. Həmin vaxt eks-prezident “İran kontras” işi üzrə məhkəmədə ifadə verirdi. Prezidentlik kürsüsünü tərk edən eks-prezdent qapalı həyat tərzi keçirib və publika qarşısına çıxmayıb.

**Corc Buş (ata).** Reyqandan sonrakı dörd ildə Ağ Evdə Corc Buş ev sahibliyi edib. O, öz postunu 1992-ci ildə Bill Klintona təhvil verib. Buşun prezidentliyə qədərki karyerası olduqca zəngin və rəngarəng olub - MKİ direktorluğundan ABŞ-ın Çindəki səfirinə qədər çalışıb. Amma buna baxmayaraq, ata Buş memuarlar üzərində çalışır və istirahət günlərində nəvələri ilə vaxt keçirməyə üstünlük verir. Buş iki oğlunun Texas və Florida ştatlarındakı qubernator fəaliyyəti zamanı onlara məsləhətçilik də edib.

Kiçik Corc Buş Ağ Evdə qərar tutandan sonra eks-prezident məqsədli şəkildə “prezident atası” rolundan kənarlaşdı. O, bunu oğlunun siyasi taleyinə ziyan vurmamaq üçün etdi. Amma o, oğlunun fəaliyyətinə görə hər zaman şad olduğunu da inkar etməyib.

**Bill Klinton.** Prezident karyerası bitsə də, amerikanların böyük qismi hələ də ölkədəki problemlərə görə B.Klintonu cavabdeh bilir. 54 yaşındaykən eks-prezident olan Klintonun qarşısında geniş perspektivlər açılsa da, o, öz istedad və gücünü hansı sahəyə qoyacağına qərar verməyib. Klinton hər zaman hesab edir ki, hər bir eks-prezidentin xalqın yanında olacağı, ona fayda verəcəyi məqamlar var. Amma o, bu şansdan məhrum olunub.

**Corc Buş (oğul)** - ABŞ-ın tarixində ikinci oğul-prezidentdir. İlk belə presedent ABŞ tarixinin ilk çağlarına təsadüf edir: ABŞ-ın ikinci və altıncı prezidentləri də ata-oğul idilər - Con və Con Kuins Adamslar. Kiçik Buş prezidentlikdən sonra yazar fəaliyyəti ilə diqqət çəkib. O, atası barədə kitab yazıb. 300 səhifəlik kitabın ilk tirajı 1 milyon nüsxə olub. 2010-cu ildə Crown Publishers kiçik Buşun “Həlledici qərarlar” adlı bestsellerə çevrilmiş memuarlarını nəşr etdirmişdi.

Kiçik Buş bundan başqa, həm də rəssamlıqla məşğul olur: o, dünya liderlərinin, o cümlədən Rusiya prezidenti Putin və Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleerin çəkdiyi portretlərini sərgidə nümayiş etdirib.

**Sarkozi mühazirə oxumaqla çörək pulu qazanır**

Keçək digər dünya liderlərinə. Fransanın eks-prezidenti Nikola Sarkozi aylıq 6 min avro pensiya alır. Ancaq Sarkozi mühazirələr oxumaqla yaxşı qazanır. Məsələn, “Morgan Stanley” bankının təşkil etdiyi konfransdakı mühazirəsinə görə 250 min avro alıb.

Estoniyanın keçmiş prezidenti Arnold Ryutel isə ayda 3700 avro təqaüd alır. Latviyanın keçmiş prezidentləri ondan az qala iki dəfə az-1800 avro pensiya alırlar. Polşa eks-prezidenti Aleksandr Kvasnevski isə aylıq 1400 avro pensiya ilə yaşayır.









**Onların hər ikisi prezident fondu yaradıblar**

**Leonid Kuçma** - 1994-cü ilin 19 iyulundan 2005-ci ilin 23 yanvarına qədər prezident olub. Prezidentlik müddəti bitəndən sonra Kuçma ömürlük təqaüdlə təmin edilib və bu, dövlət büdcəsindən verilib. O, eyni zamanda “Leonid Kuçma adına prezident fondu, "Ukrayna"ya rəhbərlik edir. Bu fond vətəndaşların mədəni səviyyəsinin qaldırılmasına və onların estetik tərbiyəsinin artırılması üzrə təlimatlanıb.

**Viktor Yuşşenko** - 2005-ci ilin 23 yanvarından 2010-cu ilin 25 fevralına qədər Ukrayna prezidenti olub. Prezident postundan gedəndən sonra V.Andreyeviç siyasətlə məşğul olma istəyini bildirib - baxmayaraq ki, siyasətin onda neqativ emosiyalar yaratdığını daha öncə açıqlamalarında demişdi. Eks-prezident Viktor Yuşşenko adına institut, “Strateji təşəbbüslər” yaratmışdı. Bununla paralel, “Mistik arsenal” və “Gələcəyin xəstəxanası” adlı təşkilatların da yaradıcısı idi.

❑ **Sevinc TELMANQIZI**

# Kompüterin uşaqlara faydası var, amma günə 257 dəqiqə

**"The Telegraph" yazır ki, valideynlər uşaqların kompüter, smartfon və video oyunları ilə çox məşğul olmasından narahat olmamalıdırlar, çünki ekran qarşısında keçirilən vaxt onların inkişafına kömək edir.**



Oxford Universitetinin alimləri düşünürlər ki, son onillikdə texnologiyaların yüksəlişi belə bir narahatlıq yaradıb ki, yeni texnologiyalar uşaqların ictimai vərdişlərinə və zehni sağlamlığına ziyan vura bilər.

Oxford Universitetinin alimləri 120 min 15 yaşlının kompüterə həsr etdiyi vaxtla onların rifah vəziyyətini müqayisə ediblər və bu nəticəyə gəliblər ki, elektron cihazlarla məşğul olmaq uşaqlara müsbət təsir göstərir.

Əslində bu faydalılıq günə 4 saat 17 dəqiqə istifadə həddində ən yüksək nöqtəsinə çatıb və bundan sonra tədricən enib.

Smartfonlar üçün bu rəqəm 2 saat və 1 saat 40 dəqiqədir.

Alimlər deyirlər ki, elektron cihazlar uşaqların kommunikasiya və zehni qabiliyyətlərini artırır.

Oxford İnternet İnstitutundan Andrew Przybylski deyib ki, bundan əvvəlki araşdırmalar həddən artıq bəsitləşdirilmişdi və aydın təsəvvür yaratmırdı.

Alim deyib ki, elektron cihazlar ümumilikdə faydalıdır, lakin bu faydalılığın vaxt limitləri var.

"The Telegraph" yazır ki, bununla belə, uşaqların fiziki vəziyyəti bu araşdırmada nəzərə alınmayıb.

2014-cü ildə Çində aparılmış araşdırma göstərmişdi ki, internetdən aşırı istifadə uşaqların beynini tükəndirir və "elektron ekran sindromu" deyilən xəstəliyə yol açır.

Buckingham Universitetinin keçmiş prorektoru lord Anthony Seldon deyib ki, "ekran müddəti" çox ciddi narahatlıq predmetidir.

O deyib ki, kompüterlər zehni qabiliyyəti artırsa da, onlardan ifrat istifadənin ciddi ziyanları ola bilər.

Alimin fikrincə, uşaqlar üçün real insanlar və onlarla real ünsiyyət daha faydalıdır.

Son araşdırmanın müəlliflləri də bu ziyanları etiraf edirlər, lakin deyirlər ki, internet uşaqlari real dostlar tapmaqdan və yuxudan məhrum etməməlidir (BBC).



## Pyotr içib keflənib özünü asdı

**Bakıda sərxoş vəziyyətdə olan şəxs özünü asıb. "Report"un xəbərinə görə hadisə Sabunçu rayonunda qeydə alınıb. Belə ki, Ə.Məmmədəliyev küçəsində 1983-cü il təvəllüdlü Pyotr Vozotintsev özünü yaşadığı evdə asaraq öldürüb.**

Hüquq-mühafizə orqanlarının əməkdaşları həmin şəxsin çoxlu miqdarda alkoqollu içki qəbul etdiyini müəyyənləşdirib. O, hadisə vaxtı evdə tək olub. Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılır.

## Bakıda usta iş yoldaşını öldürdü

**Bakıda qətl törədilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, yanvarın 14-də Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki evlərdən birində usta işləyənlər - Bakı şəhər sakini Rəşad İsmayılov münaqişə zəminində həmyerlisi Sevindik Hacıyevə bıçaqla xəsarət yetirib. S. Hacıyev hadisə yerində ölüb.**

Polis əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.İsmayılov tutulub.

## 2-ci sinif şagirdini maşın vurub öldürdü

**Bakının Qaradağ rayonu, Səngəçal qəsəbəsi ərazisində avtomagistralda məktəblinin ölümü ilə nəticələnən yol qəzası baş verib. "Salam News"un əldə etdiyi məlumata görə, 2009-cu il təvəllüdlü Vahidov Kənan Xoşbəxt oğlu anası ilə məktəbə gedən zaman yolu keçmək istəyərkən "Mercedes" markalı 99 GU 876 dövlət nömrə nişanlı avtomaşın onu vurub. 2-ci sinif şagirdi elə hadisə yerində dünyasını dəyişib.**

Məktəblinin meyiti müayinə olunmaq üçün Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Qaradağ rayon şöbəsinə aparılıb.

Baş vermiş yol qəzasını araşdıran Baş Dövlət Yol Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin müstəntiqi Elşad Əmirov faktı təsdiqləyərək bildirib ki, hadisəni törədən sürücü Allahverdiyev Famil Murad oğlunun izahatı alınıb və təyin olunacaq avtotexniki ekspertizadan sonra fakta hüquqi qiymət veriləcək.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 263.2-ci maddəsi ilə cinayət işi başlanıb.

## Polis Cəlilabadda və Səbayeldə iki narkobaron saxladı

**Azərbaycanda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər tutulub. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, yanvarın 15-də Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Qorxmaz Əsgərovdan 13 kiloqram 355 qram tiryək götürülüb.**

Bundan başqa, Səbayel Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini Səfər İbrahimovdan 2 kiloqram 205 qram heroin, 11 kiloqram marixuana, 9,588 qram tiryək götürülüb.



## Yanvarın 20-də Bakının bəzi yollarında avtomobillərin hərəkəti məhdudlaşdırılacaq

**Yanvarın 20-də Bakıda keçiriləcək anım tədbirləri ilə əlaqədar bəzi yollarda nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.**

Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, 20 Yanvar faciəsi qurbanlarını yad edənlərin rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması ilə əlaqədar yanvarın 20-də səhər saat 08:00-dan mərasim qurtaranadək Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin kəsişməsindən, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişməsindən, Mehdi Hüseyn küçəsi, Teleteatr binasının qarşısından, İzzət Nəbiyev, Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən, yeni, Milli Məclisin inzibati binasının arxa hissəsindən Parlament prospekti - Şəhidlər xiyabanı istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılaraq istiqamət dəyişdiriləcək.

Dövlət Yol Polisi İdarəsi sürücülərdən bu istiqamətdə şəxsi nəqliyyat vasitələrindən mümkün qədər az istifadə etməyi, daha çox ictimai nəqliyyatdan istifadəyə üstünlük vermələrini xahiş edir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**İş yerlərində, ofisdə iş başında yuxulamaq, mürgüləmək artıq problemə çevrilib. Xüsusən də nahardan sonra oturaq işdə çalışan bir çox insanlarda yuxulamaq, mürgüləmək halları baş verir. Bəziləri bunun səbəbini yeməyin ağırlıq gətirməsi, digərləri isə yuxu rejiminin pozulması ilə əlaqələndirirlər.**

# İşdə yuxulamamaq üçün nə etməli...

## Adil Qeybulla: "Maddələr mübadiləsi pozulan, xroniki xəstəliyi olan insanlar yatmağa meylli olurlar"

### İşdə yuxulamamaq üçün nə etməliyik?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** "Yeni Müsavat"a açıqlamasında günorta vaxtlarında yuxuluğa meylli olmağın səbəblərinə bu cür aydınlıq gətirib: "Məsələ ondan ibarətdir ki, insanın mərkəzləşmiş sinir sisteminin ayıq və yuxu dövrü var. Ayıq dövrü adətən gündüz vaxtına, amma yatmaq, sinir sisteminin tormozlanma dövrü axşam çağlarına təsadüf edir. Təəssüflər olsun ki, son illərin iş rejimi, ümumiyyətlə, insanların son durumu və digər faktorlar yuxu pozğunluğuna səbəb olub. Bu həm də mübadilə pozuntuları ilə bağlıdır. Maddələr mübadiləsi pozulan, xroniki xəstəliyi olan insanlar yatmağa meylli olurlar. Çünki mərkəzi sinir sistemində toksiki maddələrin yığılması beyin qabığının tormozlanmasına gətirib çıxarır ki, nəticədə bu cür insanlar oturduğu yerdə yatmaq istəyirlər. Eyni zamanda qan təzyiqi, hemoqlobini aşağı olan insanlar çox yatmağa üstünlük verirlər. İnsan özü öz rejimini qaydaya salmalıdır. Azı 6 saat yatmaq tələb olunur. Amma indiki dövrdə buna çox az riayət edilir. Gecə saat 11-1 arasında yatmaq fizioloji baxımdan normaldır. Hazırda yuxu rejiminin pozulması hallarına çox rast gəlinir. Bu, insanlarda nevrozluq, stress, müxtəlif sinir xəstəliklərinin yaranmasına səbəb olur. Sinir sisteminin istirahət etməsi, tormozlanması çox vacib funksiyadır və buna mütləq əməl olunmalıdır. İnsanlar özləri özlərinin həkimi olmalıdır".

Bəzi mütəxəssislər günorta vaxtı yuxulamağı aradan qaldırmaq üçün müxtəlif tövsiyələr verirlər. Onlardan ən birincisi işlədiyi ofisdə otağın havasını tez-tez dəyişmək, pəncərəni açıq saxlamaqdır. Daha bir tövsiyə hərəkətlə bağlıdır. Qeyd edilir ki, bir-iki saatdan bir ayaq üstə dayanmaq, ofisin içərisində gəzişmək əzələlərə, beyinə və damarlara daha çox oksigen getməsinə səbəb olur. Kompüter qarşısında çox oturmaq, diqqətlə monitora baxmaq da gözləri yorur, yuxusuzluq və yorğunluğu artırır. İş yerində otağın qaranlıq olması da yorğunluğa, yuxuluğa meyli artırır. Bu səbəbdən məsləhət görülür ki, otağı işıqlı vəziyyətdə saxlamaq lazımdır.



Bununla bərabər bəzi mütəxəssislər bildirir ki, günorta bir neçə dəqiqə mürgüləməyin insan orqanizminə xeyri var. Qeyd edilir ki, gün ərzində qısa yuxu əqli əməklə məşğul olanlar üçün vacibdir. Yuxu əmək qabiliyyətinin bərpasına kömək edir. Artıq bununla bağlı dünyanın bir çox ölkələrində müəyyən layihələr həyata keçirilir. Məsələn, bir neçə il bundan əvvəl Berlinin Şarlottenburq-Vilmersdorf rayonunun bələdiyyə müəssisələrində qeyri-adi layihənin həyata keçiriləcəyi ilə bağlı məlumat yayılmışdı. Layihənin devizi isə belə idi: "Əmək məhsuldarlığını yüksəldən yuxu". Məlumatda bildirilirdi ki, bələdiyyə idarəsinin əməkdaşları üçün xüsusi yer hazırlanacaq. Orada nahar vaxtı yarım saat mürgüləmək mümkün olacaq. Gündüz yuxusunun təşəbbüskarları olan məmurlar tibb işçilərinin gəldikləri belə bir nəticəyə əsaslanmışlar ki, adam səkkiz saat dayanmadan eyni səmərə ilə işləyə bilməz.

### Dünyanın ən uğurlu insanları günorta mürgüləyirmiş...

Araşdırmalar zamanı məlum olub ki, dünyanın ən uğurlu insanlarının çoxu gün ərzində cəmi 3-4 saat yatırmış. Məsələn, dünyanı lider ölkəsinə yenicə prezident seçilmiş Donald Tramp, sən demə, gecə cəmi 3-4 saat yatır. İngiltərənin "Dəmir ledi"si olmuş mərhum Marqaret Tetçer gün ərzində cəmi 4 saat yatarmış. Az yatıb daha çox iş görmək prinsipi ilə yüksək zirvələri fəth edən məşhurların siyahısını bir qədər də genişləndirmək olar. Lakin sonradan həmin məşhurların yaxınlarının verdiyi açıqlamalardan belə məlum olur ki, onlar gecə 3-4 saat yatmaqlarına baxmayaraq nahar fasiləsində bir neçə dəqiqə mürgüləyirlər.

**Professor Adil Qeybullanın sözlərinə görə, bu cür dincəlmək üsulu sonradan insan orqanizminə öz təsirini mütləq göstərir:**

"Əlbəttə, gecə yatmamaq, çox gərgin işləmək sağlamlığa təsir göstərir, bunun da gec-tezi var. Bu, mütləq özünü göstərəcək. Gündüz yatmaq istirahəti müəyyən qədər bərpa edə bilər, amma gecə yuxusunu tamamilə əvəz edə bilməz".

**❑ Xalidə GƏRAY**

# Türk brendləri Azərbaycanda niyə dəfələrlə baha satılır?

## Natiq Cəfərli: "Azərbaycanda bununla bağlı bir neçə problem var"




**Türk lirəsinin dəyərdən düşdüyü bir vaxtda Türkiyənin bir çox geyim mağazalarında endirim kampaniyalarına start verib. Türkiyədə bir sıra brend mağazalar var ki, onların eynisi Azərbaycanda da fəaliyyət göstərir. Bunlara misal olaraq "Mavi", "De Facto", "LC WAIKIKI", "Pink", "D's Damat" və s. göstərmək olar. Elə brendlər var ki, dünyanın əksər ölkələrində fəaliyyət göstərən mağazalarında qiymətlər eyni olur. Azərbaycanda isə durum bir qədər fərqlidir.**

Belə ki, Türkiyənin yuxarıda adını qeyd etdiyimiz firmalarının malları paytaxt Bakıda dəfələrlə baha satılır. Üstəlik, hələ endirimli qiymətlərlə Türkiyədə satılan qiymətlərdən xeyli fərqlənir. Məsələn, Türkiyədə "Mavi"nin qadın üçün Serena adlanan cins şalvarı 79.99 TL-ə satıldığı halda eyni şalvar "Gənclik Mall" ticarət mərkəzində yerləşən mağazasında 159 manat 90 qəpikdən endirimlə 111 manat 90 qəpiyə düşüb. Aradakı fərqə diqqət edək. Bugünkü, məzənnə ilə 79.99 TL-ni Azərbaycan manatına çevirdikdə 37 manat 83 qəpik edir. Göründüyü kimi, bu şalvar Bakıda 3 dəfəyə qədər baha satılır.

Başqa bir müqayisəyə baxaq. "LC WAIKIKI" mağazalarında da 70 faizədək endirim olmasına baxmayaraq, Bakıdakı qiymətlər endirimlə Türkiyədən 10-30 manat arasında fərqlə baha satılır. "De Facto" mağazasında da 50 faiz endirim olmasına baxmayaraq qiymətlər baha idi. "D's Damat"ın Türkiyədə 35 manata satılan köynəyi Bakıda 65 manatdır. Kostyumlar, paltolar və gödəkcələrdən hələ danışmırıq. Onların qiymətində isə 4 dəfəyə qədər fərq olduğunu deyə bilərik.

"Pink"də də qiymətlər arasında 3 dəfəyə qədər fərq hiss etdik. "Pink"də ən ucuz əlcək idi ki, onun da qiyməti 12 manat 90 qəpik idi. "Pink" çantası, pul kisələri isə əl yandırırdı. Aksesuarların ən ucuzu 7 manat idi.





Paytaxtın müxtəlif yerlərində olan Türkiyənin brend mağazalarda qiymətlərin bu qədər fərqli olmasının səbəbləri ilə maraqlandıq. Şəhərin mərkəzi küçəsində "Torqovı" adlanan ərazidə yerləşən türk brendlərinin satıldığı bir sıra mağazalar bunun səbəbini icarə haqqının yüksək olması ilə əlaqələndirirdi. "Neftçilər" metrosu yaxınlığında, "Gənclik Mall" və "28 Mall" ticarət mərkəzlərində yerləşən mağazalar brend geyimlərin Türkiyə ilə müqayisədə dəfələrlə baha satılmasının səbəbini məzənnədə görürdülər. **"Gənclik Mall"da yerləşən "De Facto"nun satıcısı malları dollarla aldıqları üçün baha satıldığını dedi:** "Azad bazar dövründəyik. Ona görə də kiminsə qoyduğumuz qiymətə müdaxilə etməyə haqqı yoxdur. Bahadır, almasınlar. Məcbur satmırıq. Bizim bu malları Türkiyədən gətirməyimizin, gömrükdən keçməyimizin, yol xərclərini hesablasanız görərsiniz ki, biz haqlı olaraq bu qiymətə satırıq".

### Alıcılar arasında qiymətləri münasib görməyənlər də var, bunun əksini düşünənlər də...

**Alıcı Murad Əliyev deyir ki, onun Türkiyəyə tez-tez getməyə vaxtı olmadığı üçün türk brendlərini Bakıdan almağa çalışır:** "Düzdür, qiymətlərin üzərinə xeyli qoyurlar. Ancaq ən azından bilirəm ki, keyfiyyətli mal alıram və bunun həmin brendin saxtası olmadığına əminəm. Bu gün əksər mağazalarda Türkiyə brendi adı ilə saxta geyimlər satılır. Tutaq ki, hansısa kostyum Bakıdakı sexlərdən birində tikilir və üzərinə Türkiyənin etiketi vurulur, baha qiymətə satılır. Başı çıxmayan adam da elə bilir bu mal doğrudan da Türkiyə istehsalıdır. Ona görə də firmanın buradakı mağazalarından almaq daha güvənlidir".

**Maraqlıdır, nəyə görə Türkiyə brendləri Azərbaycanda cüzi fərqlə yox, dəfələrlə baha satılır? İqtisadçı ekspert Natiq Cəfərli bunun bir neçə problemdən qaynaqlandığını dedi:** "Geyim sahəsi elə bir sahədir ki, burada inhisarçılıq yoxdur. Satıcıya irad da bildirmək olmur ki, nəyə görə məhsulu baha qiymətə satırsınız. O özü bazarda alıcılıq qabiliyyətinə uyğun olaraq qiyməti müəyyən edir. Ona görə də burada irad bildirilərsi, dövlət tərəfindən hər hansı bir tənzimlənmə mümkün deyil, heç lazım da deyil. Sadəcə olaraq, Azərbaycanda bununla bağlı bir neçə problem var. Birinci problem odur ki, çox zaman türk şirkətlərinin Azərbaycanda, Bakıda açılan mağazaları rəsmi dilerlər deyil. Yəni rəsmi müqavilələrlə çalışmırlar. Sadəcə olaraq, həmin şirkətin rəsmi şəbəkəsindən deyil, onun adından zaman-zaman istifadə edərək mağaza açan şirkətlərdir. Bu da ümumi həmin şirkətlər dünya üzrə endirim kampaniyaları apararkən, Azərbaycandakı mağazalar buna qoşulmaya bilər. Gömrük rüsumları da qiymətlərə çox ciddi təsir göstərir. Son iki ilə qədər geyim əşyaları gömrükdən keçərkən çox zaman çəki ilə hesablanırdı. İndi isə ayrı-ayrı mal növlərinin hamısının qiymətinin 18 faizi əlavə dəyər vergisinə cəlb olunur və 0 faizdən 15 faizə qədər də geyim məhsulları gömrük rüsumuna cəlb olunurlar. Bunları da üzərinə gələndə təbii ki, məhsulun qiymətində artım müşahidə olunur".

**N.Cəfərli burada devalvasiyanın da təsirinin böyük olduğunu dedi:** "Azərbaycan manatı ilə bağlı gözləntilər də fərqli olduğundan satış zamanı həyata keçirilərkən yəni 1-2 ay ərzində manatın daha çox dəyərdən düşmə ehtimalı var. İş adamları məcburən o ehtimalı da qiymətin üzərinə qoyurlar. İş adamları dolları rəsmi məzənnədən 10 qəpik artıq aldıqlarına görə daha çox qiyməti qaldırmağa məcbur olurlar. Azərbaycanda yerli istehsal yoxdur. Yerli istehsal yoxdursa, bazarı qorumaq dərdimiz yoxdursa, nəyə görə xaricdə istehsal olunan məhsullara belə külli miqdarda vergi və gömrük rüsumu qoymalıyıq. Yəni bunu etməsək, qiymətlərin ən azından daha aşağı çəkilməsinə imkan yarana bilər. Amma bunu inzibati yolla, qadağalarla, dövlət orqanlarının müdaxiləsi ilə etmək doğru və mümkün deyil".

Bəs qiymətlərin dəfələrlə baha və fərqli satılması İstehlakçıların hüququnu pozurmu?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov biznes qurumların onlara yaradılan toxunulmazlıq şəraitindən sui-istifadə etdiyini dedi:** "Azərbaycanda liberal bazardır. İstənilən qurum istənilən malı istənilən qiymətə sata bilər. Dövlət bu işlərə müdaxilə etməməlidir. Dövlətin vəzifəsi bolluq yaratmaq, rüsumları aşağı salmaq və bununla da qiymətin formalaşmasına təsir etməkdir. Əhali arasında səhv bir fikir var ki, məsələn, Fransada bir telefon tutaq ki, 100 manata satılır, Azərbaycanda isə onun eynisini 50 manata satırlar. Deyir ucuz olduğu üçün saxtadır. Ola bilər bir mal öz ölkəsində baha olsun, kənar ölkədə isə ucuz. Gömrük rüsumları elə ola bilər ki, həmin ölkəyə onu ucuz satmaq sərf edə bilər".

**❑ Günel MANAFLI**

**❑ Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

Son səhifə

N 10 (6624) 17 yanvar 2017




## 100 il əvvəl götürülən kitabı kitabxanaya qaytardı

Amerikalı Uebb Conson San Fransisko kitabxanasına 100 il əvvəl götürülmüş kitabı geri qaytarıb. Bu barədə lenta.ru saytı "San Francisco Chronicle"a istinadən yazıb. Söhbət Fransis Hopkins Smitin qısa hekayələrindən ibarət "40 dəqiqə gec" adlı kitabından gedir. Kitabı onun nənəsi Fibi Uebb götürüb. Kişi kitabı 1966-cı ildə aşkarlayıb. Kitabın qaytarılma vaxtı nənəsinin ölümündən bir həftə sonraya təsadüf edirdi. Həmin vaxt Conson onu kitabxanaya aparmayıb. Düşünüb ki, aradan bir neçə il keçdiyi üçün kitab ailəyə qalmalıdır. Kitabxana isə kişini bu gecikməyə görə cərimələməyib. Əksinə, oxucuların zamanında qaytarmadığı kitablarla bağlı aksiya keçirib.

2016-cı ilin aprelində Yeni Zelandiya sakini Oklend şəhər kitabxanasına 1948-ci ildə götürülmüş kitabı geri qaytarmışdı. Qadın "Maori ölkəsinin mif və əfsanələri" adlı kitabı özündə saxlayırdı. Kitabxana işçisinin sözlərinə görə, Zoe Kornelius adlı təqaüdçü qadın kitabı hələ uşaq olanda kitabxanadan götürübmüş və bu müddət ərzində onu geri qaytarmağı planlaşdırırmış. Kitabxana rəhbərliyi qadını bağışlayıb və gecikmiş kitaba görə 17 min dollar məbləğindəki cəriməni ona bağışlayıb.

## Küçəyə atılan uşağı pişik xilas etdi

Rusiyada Obninsk şəhərindəki evsiz pişik dünyanın qəhrəmanına çevrilib. Buna səbəb onun küçəyə atılmış bir körpəni himayə edib, ölümdən xilas etməsi olub. Lenta.ru saytının xəbərinə görə, 2 aylıq körpəni yaşayış binasının zibilliyinə atan şəxslər onun möcüzə ilə xilas olacağını bilməyiblər. Belə ki, körpəni yerləşdirdikləri qutu evsiz pişiyə məxsus olub. Sibir cinsindən olan pişik bir neçə saat boyunca o körpəni isidib və ətrafdakıların diqqətini cəlb etmək üçün aramsız miyoldayıb. Nəhayət, onun cəhdləri uğurla nəticələnib və yoldan keçənlər körpəni fərq ediblər. Uşaq xəstəxanaya aparılıb. Onun tam sağlam olduğu üzə çıxıb. Evin sakinləri isə pişiyi dadlı yeməklərlə mükafatlandırıblar.



## Keçili yoqa - dünyada yeni dəb başlanıb

ABŞ-ın Oreqon ştatında yaşayan fermer keçilərlə yoqa dərsləri keçir. Bu qeyri-adi məşğələyə minlərlə insan qatılır. Keçilərlə yoqanın adi yoqadan yeganə fərqi odur ki, orada insanlar arasında sevimli keçilər gəzişir. Bəzən idman hərəkətləri edən insanların üstünə keçi hoppanır və bu, motivasiyanı daha da gücləndirir. Soyuq havalarda məşğələlər qapalı yerdə keçirilir. Fermanın sahibi Leyni Morz 2016-cı ildə keçiçiliklə yoqanı birləşdirməyə qərar verib. Ötən ilin avqustunda bununla bağlı çəkilən videoanons internetdə ciddi populyarlıq qazandı. Məhz bundan sonra ferma bu formada yoqa ilə məşğul olmaq istəyənlərin müraciəti ilə aşıb-daşdı. Kurslara yazılan 900 nəfər hazırda öz növbəsini gözləyir. Morz belə bir uğurlu nəticəni gözləmirdi. O, 10 il boyunca işlədiyi kampaniyadan çıxıb və özünü tamamən keçili yoqaya həsr edib. Oreqon Universiteti isə kampusun ərazisi daxilində yoqa məşğələləri aparmaq üçün anlaşıb.





## Məşhurluq insan ömrünü qısaldır

Amerikada yayımlanan bir qəzetin ölüm elanları səhifəsi araşdırılandan sonra ortaya maraqlı bir nəticə çıxıb. Nəticələrə görə, daim göz önündə olan şöhrətli bir insan olmaq ömrü qısalda bilir. Belə ki, sənətçilər, idmançılar digər peşələrdə təmsil olunanlardan bir neçə il erkən dünyasını dəyişir. Araşdırmaçılar bildirib ki, onların gəldiyi nəticələr konkret faktlara əsaslanmasa da şöhrət insanın həyatını həqiqətən də oğurlayır. BBC-nin xəbərinə görə, avstraliyalı alimlər 2009-2011-ci illərdə "Nyu York Times" qəzetində yayımlanan 1000 ölüm elanını incələyib. Məşhurların orta ömür həddi 77 il olaraq müəyyənləşib. Buna qarşılıq olaraq akademiklər, elm adamlarında orta ömür həddi 82 yaş olub. Məşhurların daha çox xərçəng, xüsusən də ağciyər xərçəngindən dünyasını dəyişdiyi də müəyyənləşib.




**QOÇ** - Ətrafınızda cərəyan edən proseslər nə qədər əleyhinizə işləsə də, dözümlü olmalısınız. Əks təqdirdə, uğurlardan uzaq düşəcəksiniz. Mənzil şəraitində daha çox olun.

**BUĞA** - Kosmik fonun aktivliyini nəzərə alan ulduzlar bütün diqqəti fəaliyyətə ayırmağı tövsiyə edir. Əgər bunu bacarsanız, yanvarın son ongünlüyündə ciddi problemlərlə rastlaşmayacaqsınız.

**ƏKİZLƏR** - Həyat təcrübəsi zəif olan adamlardan uzaq olun. İndiki məqamda belə hallar sizə yalnız zərər yetirə bilər. Amma bilik və təcrübəsi bol olan şəxslərdən bərk-bərk yapışın.

**XƏRÇƏNG** - Əgər səhhətiniz imkan versə, müqəddəs yerləri ziyarət etməklə hazırkı enerji azlığınızı aradan qaldıra bilərsiniz. Maraqlı insanlarla rastlaşma ehtimalınız da var.

**ŞİR** - İştirakçısı olduğunuz proseslər olduqca ciddi bir mərhələyə yetişib. Belə məqamlarda ehtiyatlı və tədbirli davranmalısınız ki, gözdən düşməyəsiniz. Uzaq yola çıxmaq da olar.

**QIZ** - Ətrafınızı bürüyən bədxah insanlar sizi imansız yola təhrik edə bilərlər. Özünüzü təsirdən qoruyun. Hansısa dedi-qodu və ya şər neçə illik xoş münasibətlərə kölgə salmamalıdır.

**TƏRƏZİ** - Mistik düşüncələrə qapılmaqdansa, Tanrını başınız üstündə hiss edib düzgün qərarlar verin. Yalnız bu halda irəliləyişlər mümkündür. Qarşınızda müəyyən yeniliklər də durur.

**ƏQRƏB** - Sizə mənəvi dəstək verə biləcək insanlarla rastlaşma ehtimalınız var. Çalışın ki, bu görüşlər boşuna getməsin. Daxili narahatlığınızı dəf etmək üçün bunun böyük səmərəsi ola bilər.

**OXATAN** - Nahara qədər qeyri-adi hansısa hadisə gözləməkdənsə, darıxdığınız adamlarla görüşməyə cəhd edin. Pul və işlə bağlı planlarınızı isə günortadan sonraya saxlayın.

**OĞLAQ** - Pul kisəsinin qənaətbəxş olmaması ləyaqət və mənliyinizə kölgə salmamalıdır. Çünki həyatın enişi-yoxuşu həmişə olur. Odur ki, iman işığına söykənib mərhəmətli olun.

**SUTÖKƏN** - Çıxardığınız hər bir qərarı dəfələrlə götür-qoy edin. Yanlışlığa yol verməyin. İlk növbədə nüfuzunuzu qoruyun. Astroloji göstəricilər yeni ideyalara yiyələnəcəyinizdən xəbər verir.

**BALIQLAR** - Həssas və çılğın olmağınızdan istifadə edən bəzi bədxahlar sizə tələ qura bilər. Bu səbəbdən də özünüzü dağ kimi təmkinli aparın. Əmin olun ki, bunun bəhrəsini görəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evlərinə qar içindən açdıqları tuneldən girdilər



Konyanın Hadim bölgəsində qarın qalınlığı 3 metrə qədər yüksəldiyi üçün yollar bağlanıb. Bəzi insanlar hətta evlərinə qar içindən açdıqları tuneldən girib çıxırlar. Əhalisi 13 min nəfər olan kənddə gündəlik həyat dayanma nöqtəsinə gəlib. Konya Böyükşəhər bələdiyyəsi və Hadim bələdiyyəsi heyəti bağlanan yolları hərəkətə açmaq üçün əllərindən gələni edirlər. Amma qar bəzi evlərin qapısını belə açmağa imkan vermir. Ona görə də bəzi insanlar qardan bağlanan evlərinə açdıqları tuneldən girib çıxırlar. Bəziləri isə evlərinə damdan girmək məcburiyyətində qalıblar. Evləri və balkonları qarla bağlı olanlardan bəziləri də qarın üstündə çay içərək, qışın gözəlliyinin dadını çıxarır.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100